QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 114 (5586) 15 **iyun** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**



# Qurtuluşdan başlayan tərəqqi!

*Bu gün*

# *15 İyun*

*Milli Qurtuluş Günüdür*

# Moskvada futbol üzrə dünya çempionatının təntənəli açılış mərasimi keçirilib

*Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edib*













***İyunun 14-də Moskvadakı "Lujniki" stadionunda futbol üzrə növbəti dünya çempionatının təntənəli açılış mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva mərasimdə iştirak ediblər.***

Qeyd edək ki, iyirmiyə yaxın ölkənin dövlət və hökumət başçılarının da qatıldığı açılış mərasiminin proqramı zənginliyi və əvvəlki dünya çempionatlarının açılış mərasimlərinin proqramlarından fərqli formatı ilə əsaslı şəkildə seçildi. Budəfəki tədbir daha qısa vaxt ərzində və yığcam oldu, məşq ərəfəsində deyil, birbaşa Rusiya-Səudiyyə Ərəbistanı matçından əvvəl keçirildi.

Britaniyalı müğənni Robbi Uilyamsın və Vyana Operasının solisti, tanınmış opera müğənnisi Aida Qarifullinanın ifası mundialın açılış mərasiminə əlavə əzəmət qatdı.

Açılış mərasiminin prodüseri Rusiyanın Birinci kanalıdır. Bu əzəmətli şounun konsepsiyasının müəllifi isə rejissor Feliks Mixaylovdur. Bu işdə ona İlya Averbux da kömək göstərib. İkiqat dünya çempionu, braziliyalı futbolçu Ronaldo da açılış mərasiminə qatılıb. Dünya çempionatına ev sahibliyi edən Rusiya Federasiyasının Prezidenti Vladimir Putin mərasimdə çıxış etdi.

Rusiya dövlətinin başçısı bütün qonaqları Moskvanın əfsanəvi "Lujniki" stadionunda salamlayaraq, dünyanın mehriban futbol ailəsini çempionatın açılışı münasibətilə təbrik etdi. Bu möhtəşəm idman hadisəsinin ilk dəfədir ki, Rusiyada keçirildiyini deyən Vladimir Putin ölkəsində bu idman növünə xüsusi sevginin bəslənildiyini də əlavə etdi. O, bu idman bayramını Rusiyada qəbul etmək üçün dünya çempionatına məsuliyyətlə hazırlaşdıqlarını bildirdi. "Harada yaşamağımızdan, hansı ənənələrə riayət etdiyimizdən asılı olmayaraq bizim hamımızı bu parlaq idman növü - futbola sevgi birləşdirir. Futbolun gücünün əsasını humanizm təşkil edir. Çünki bu, birlikdir", - deyən Rusiya Prezidenti bu birliyi gələcək nəsillər üçün qoruyub saxlamağın vacibliyini vurğuladı.

FIFA-nın prezidenti Canni İnfantino da çıxışında Rusiyada başlayan futbol üzrə dünya çempionatının idmanın bu növünün həvəskarlarına maraqlı anlar yaşadacağını söylədi. Otuz iki ölkənin yığma komandalarının mübarizə apardığı budəfəki futbol üzrə dünya çempionatı iyunun 14-dən iyulun 15-dək davam edəcək. Çempionat Rusiyanın 11 şəhərinin 12 stadionunda keçiriləcək.

Xatırladaq ki, açılış mərasimini "Lujniki" stadionunda 80 min, televiziya ilə birbaşa yayımla isə təqribən 1 milyard nəfərə qədər tamaşaçı izləyib.

# Müstəqilliyimizi əbədiləşdirən Milli Qurtuluş Günü

***Azərbaycanın ictimai-siyasi, sosial-mədəni həyatında əsrin tarixinə yazdığı uğurları ilə əbədiləşən Ulu Öndər Heydər Əliyevin siyasi kursu nəticəsində Azərbaycan özünün müstəqilliyinin sütunlarını möhkəmlətdi, onun dünyaya inteqrasiya olunmasına töhfələrini verdi. Ulu Öndər Heydər Əliyevin müdrik, uzaqgörən siyasətinin məntiqi idi ki, müasir dövrün tələbləri çərçivəsində dünya xalqlarına böyüklüyünü göstərə bildi.***



Xalqın tarixinə iz salan, Azərbaycanın ictimai-siyasi, mədəni həyatında hadisəyə çevrilən gün - Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkəmizdə böyük sıçrayış baş verdi. Həmin tarixə qədər son illərdə baş verən hadisələr, xalqı bütövlükdə, uçuruma sürükləyən məqamlar istər ölkə daxilində, istərsə də xaricində onun sütunlarını zəiflətməyə başlamışdı. Belə bir zamanda, xalqın təkidi və istəyi ilə hakimiyyətə gələn, qayıdışı ilə böyük nailiyyətləri Azərbaycan salnaməsinə daxil edən Dahi Öndər Heydər Əliyev Ona etimad göstərənlərin ümidini tez bir zamanda doğrultdu. 15 iyun 1993-cü il tarixində baş verən hadisə - Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın müstəqil həyatının yeni səhifələrini yazdı. Tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu və dövlətçiliyimizi yox olmaq təhlükəsindən qurtardı. Ulu Öndər Heydər Əliyev respublikanın müstəqilliyini qorudu, ölkədə tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. Ulu Öndər Heydər Əliyev siyasi və iqtisadi zəmində baş verən gərginliklərə sinə gərdi, ölkəni parçalanmaq təhlükəsindən xilas edərək, müstəqilliyini qoruyub-saxlaya bildi. Ümummilli Lider Heydər Əliyevin siyasi uzaqgörənliyi və müdrikliyi sayəsində Azərbaycan ən yeni tariximizin çətin anlarından şərəflə çıxdı. Dahi Şəxsiyyət Heydər Əliyevin siyasi kursu nəticəsində, Azərbaycan özünün müstəqilliyinin sütunlarını möhkəmlətdi, onun dünyaya inteqrasiya olunmasına töhfələrini verdi.

Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Heydər Əliyev milli dövlətçiliyin konsepsiyasını yaratdı. Bütün mənelərə baxmayaraq, ən qısa müddətdə, ölkədə ictimai-siyasi sabitlik bərpa olundu. Mürəkkəb siyasi şəraitdə Heydər Əliyevin böyük potensialı Azərbaycanın müstəqilliyinin qarantına çevrildi.

Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı zamanda, ölkədə yaranmış mürəkkəb ictimai-siyasi şəraitdə Yeni Azərbaycan Partiyası siyasi səhnəyə gəldi. Bu, o zaman idi ki, cəmiyyət ümumxalq inamına malik olan və ilk növbədə, milli birliyə, vətəndaş həmrəyliyinə əsaslanaraq, ölkəni böhrandan xilas etməyə qadir olan yeni siyasi qüvvəyə ehtiyac duyurdu. Bu səbəbdən də Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında yeni siyasi partiya yaratmaq istəyi ilə 1992-ci ilin oktyabrında ziyalılar mətbuatla ona müraciət ünvanladılar.

Müstəqil Azərbaycanın Qurucusu Heydər Əliyev ən yeni tariximizin çətin anlarından şərəflə çıxaraq müstəqilliyimizin gerçəkləşməsində və ictimai-siyasi həyatımızın bütün istiqamətləri üzrə inkişafın təmin edilməsində qarant rolunu oynadı. YAP-ın yaradılması Azərbaycan dövlətçiliyinin formalaşması prosesinə təsirini göstərdi. YAP yaranandan Azərbaycanın siyasi həyatında özünəməxsus rola malik olan təşkilat kimi qəbul edildi. Bunun da əsas səbəbi o idi ki, partiyanın rəhbərliyində Ulu Öndər Heydər Əliyev kimi Azərbaycan xalqının böyük hörmət və inam bəslədiyi Dahi Şəxsiyyət dayanırdı. YAP Azərbaycan dövlətinin müstəqilliyinin qorunub-saxlanılmasında və dövlətçiliyimizin inkişaf etdirilməsində müstəsna xidmətləri olan siyasi təşkilata çevrildi.

1993-cü ilin oktyabr ayının 3-də YAP-ın Sədri Heydər Əliyevin prezident seçilməsi ilə partiyanın həyatında yeni dövrün əsası qoyuldu. Ölkəmizdə iqtisadi sabitliyin təmin edilməsi, tənəzzülə uğramasının qarşısının alınması və yeni dövrün tələblərinə uyğun şəkildə islahatların həyata keçirilməsi önəmli idi ki, Heydər Əliyev də müdrikcəsinə dövrün irəli sürdüyü bu tələbləri müstəqil Azərbaycan dövlətində ardıcıl şəkildə həyata keçirdi və ölkəmizdə yeni iqtisadi mühit, azad bazar iqtisadiyyatı formalaşdı. Sonrakı dövrlərdə Azərbaycan vətəndaşlarının sosial durumunun yaxşılaşdırılması ilə bərabər, dövlət quruculuğu siyasətinin ardıcıl surətdə həyata keçirilməsi, Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun artırılması istiqamətində addımlar atıldı.

Ulu Öndər Heydər Əliyevin böyüklüyünü ifadə edən amillərdən biri də odur ki, O, mövcud vəziyyəti yetərincə qiymətləndirə bilmişdi. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması milli iqtisadi inkişafın təməlini qoydu. Əlbəttə, "Əsrin müqaviləsi"nin imzalanması tarixi hadisə və dönüş nöqtəsi idi. Azərbaycanın "Əsrin müqaviləsi"ndən başlanan yolu haqqında Heydər Əliyev belə deyib: "1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyasının da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən, neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha səmərəli istifadə etməkdən ibarətdir".

"Əsrin müqaviləsi"nin tərəfdaşı olan ölkələrin, demək olar ki, hər biri dünyada böyük nüfuza, gücə malik ölkə idi. Həmin dövr üçün bu ölkələrin Azərbaycanın tərəfdaşına çevrilməsi təhlükəsizliyimizin təminatına səbəb olan amillərdəndir. Bu müqavilə Azərbaycanın dövlət təhlükəsizliyinin təminatçısına çevrildi. Nəinki regionda, qlobal miqyasda nəhəng neft kəməri olan Bakı-Tbilisi-Ceyhanın əsası qoyuldu. "Əsrin müqaviləsi" sayəsində Azərbaycana birbaşa investisiyalar qoyuldu, ölkəmiz dünya bazarında iqtisadi müttəfiq kimi tanındı. Bununla yanaşı, Azərbaycan beynəlxalq hüquq müstəvisində iqtisadi maraqlarını və iqtisadi hüquqlarını qorumağa başladı. Qeyd edək ki, son illərdə Azərbaycan əldə etdiyi neft gəlirləri sayəsində özünü donor dövlətə çevirməyi bacarıb.

Müasir dövrümüzdə Yeni Azərbaycan Partiyası Heydər Əliyev ideyalarına əsaslanır, Heydər Əliyev şəxsiyyətində əks olunan mənəvi gücü cəmiyyətimizə transfer edir. YAP-ın əsas məqsədi Heydər Əliyev ideyalarını yaşatmaq, bu ideyalar əsasında Azərbaycan cəmiyyətini kökləyərək, inkişafın əsas istiqamətlərini müəyyənləşdirməkdən ibarət olub. Tarixi gedişdə YAP bu missiyanı layiqincə yerinə yetirib.

Bu gün Azərbaycan sürətlə inkişaf edən ölkəyə çevrilib. Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasında birgə addımlamağı əsas hədəf kimi qarşıya qoyub. Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan siyasi və iqtisadi müstəqilliyini möhkəmləndirib, dövlətçiliyini inkişaf etdirib, demokratik dəyərlərə yiyələnib və özünün liberal prinsiplərə əsaslanan iqtisadi modelini yaradıb. Respublikamız, eyni zamanda, bütün dünyaya nümunə ola biləcək yeni geoiqtisadi güc mərkəzi modelini yaradıb. Azərbaycan qarşıdakı onilliyin inkişaf istiqamətlərini müəyyənləşdirib. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası da buna əyani sübutdur. İnkişaf konsepsiyası yeni onilliyin sosial-iqtisadi, ictimai-siyasi, elmi-mədəni, humanitar sektorlarında həyata keçirilməsi hədəf seçilən tədbirlərin müəyyən edilməsini nəzərdə tutur. Qarşıdakı dövrün layihələri ümidverici və irəliyə baxmaq üçün stimulvericidir.

Bu gün fəxarət hissi ilə deyə bilərik ki, Ulu Öndərin müəyyənləşdirdiyi inkişaf strategiyası bəhrəsini verir. Azərbaycan Prezidenti İlham Əliyev dünyanın ən uca kürsülərindən çıxış edərək, ölkəmizin maraqlarını müdafiə edir. Əlbəttə ki, bu uğura nail olunması üçün böyük işlər görülüb, dövlətimiz böyük yollar keçib.

Ümummilli Liderin siyasi zəkasının məhsulu olan qüdrətli Azərbaycan bu gün öz inkişaf tempinə görə dünyanın lider dövlətləri sırasındadır. Ölkəmizə qarşı həyata keçirilən ikili standartlara, ərazilərimizin 20 faizinin işğal altında olmasına baxmayaraq, ölkəmiz ildən-ilə böyük iqtisadi yüksəlişə nail olmaqdadır.

Müstəqil Azərbaycanın bütün sahələrdə qazandığı möhtəşəm nailiyyətlər Ulu Öndər Heydər Əliyev ideyalarının təntənəsi və milli tariximizin şanlı səhifələridir.

***Zümrüd BAYRAMOVA***

# Azərbaycanın Baş naziri Parisdə Fransa Prezidentinin diplomatik müşaviri ilə görüşüb



Parisə səfəri çərçivəsində Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov Fransa Prezidentinin diplomatik müşaviri Filip Etiyen ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə siyasət, iqtisadiyyat, mədəniyyət və humanitar sahələrdəki əlaqələr, eləcə də Dağlıq Qarabağ məsələsi, Azərbaycan-Aİ münasibətləri, həmçinin regional geosiyasi vəziyyət müzakirə edilib. Yüksək səviyyəli qarşılıqlı səfərlərin təşkilinin əhəmiyyəti vurğulanıb. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyi bildirilib. Qeyd edilib ki, Dağlıq Qarabağ münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında, xüsusilə də BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq ölkəmizin ərazi bütövlüyü çərçivəsində həlli istiqamətində Fransadan səylərini artırması gözlənilir.

# TRT HABER: Azərbaycan öz inkişaf yolunda qətiyyətlidir




TANAP-ın açılış mərasimindən canlı reportaj yayan Türkiyənin TRT HABER kanalı təcavüzkar Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq siyasəti və onun acı nəticələri barədə tamaşaçılara geniş məlumat verib. AZƏRTAC xəbər verir ki, canlı yayımda TANAP layihəsinin reallaşmasında iki qardaş ölkənin liderlərinin birgə qərarlarının əhəmiyyətinə dair mühüm məqamlara toxunulub. Aparıcı Sevil Nuriyeva tamaşaçıların diqqətinə çatdırıb ki, Azərbaycan Respublikası Ermənistanın işğalçılıq siyasətinə baxmayaraq, beynəlxalq layihələri həyata keçirməyə və hərtərəfli inkişafa davam edir. İşğalçı Ermənistan isə zaman-zaman olduğu kimi, indi də Azərbaycanda və Türkiyədə maraqları olan böyük dövlətlərin buyurduğunu yerinə yetirir. Buna baxmayaraq, Azərbaycan öz inkişaf yolunda qətiyyətlidir. O cümlədən Türkiyə dövləti də terrorizmə qarşı mübarizəyə böyük enerji sərf etməsinə baxmayaraq öz iqtisadi inkişaf dinamikasını qorumaqdadır.

# Sevinc Fətəliyeva: TANAP Avropa üçün yeni enerji mənbələrinin əsasını qoyub



Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz çox uğurlu enerji siyasəti həyata keçirir. İyunun 12-də TANAP layihəsinin açılışı bu siyasətin parlaq nəticələrindən biridir. Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva deyib. S.Fətəliyeva bildirib ki, Trans-Anadolu qaz boru kəməri ilə Azərbaycan təbii qazının Avropaya nəqli reallaşacaq. Dünya enerji siyasətində və beynəlxalq münasibətlər sistemində Azərbaycanla bağlı prioritetlərin mövcud olduğunu deyən Milli Məclisin deputatı qeyd edib ki, ölkəmizin apardığı enerji siyasəti nəticəsində respublikanın təhlükəsizliyinə və gələcək tərəqqisinə əlavə təminat yaradılır. Sevinc Fətəliyeva əlavə edib ki, dünyanın nüfuzlu dövlətləri Azərbaycanla enerji sahəsində fəal əməkdaşlıq edirlər. O, ölkəmizin iqtisadiyyatının inkişaf etdirilməsi istiqamətində aparılan iqtisadi, o cümlədən enerji siyasətini yüksək qiymətləndirərək deyib ki, bu, həyata keçirilən transmilli layihələrin təşəkkül tapmasına və ölkəmizin beynəlxalq inteqrasiyasına hərtərəfli dəstək verir. “Azərbaycanın neft və enerji sektorunun inkişafı artıq ölkəmizin iqtisadi yüksəlişinə töhfə verib, regional və qlobal əməkdaşlıq üçün əlavə imkanlar yaradıb. Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, bu gün isə TANAP regionun əhəmiyyətini artıraraq Avropa üçün yeni enerji mənbələrinin əsasını qoyub. Bütün bu layihələr Azərbaycanın regionun əsas iştirakçısı və beynəlxalq arenada əhəmiyyətli aktor kimi önəmini artırır”, -deyə S.Fətəliyeva vurğulayıb.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Kaluqa vilayətində tələbələrin “Turizm toplantısı” turniri keçirilib



Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (RAGB) sədri Leyla Əliyevanın təşəbbüsünə əsasən, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi ilə Rusiya Federasiyasının Kaluqa vilayətində şəhərətrafı “PineRiver” otelində tələbələrin “Turizm toplantısı” turniri keçirilib.

AZƏRTAC xəbər verir ki, RAGB-nin idarə heyətinin üzvü Emin Hacıyev açılış mərasimində idman toplantısının iştirakçılarını salamlayaraq, gənclər təşkilatı tərəfindən keçirilən idman tədbirlərinə göstərilən marağa görə onlara təşəkkürünü bildirib.



E.Hacıyev gənclərə RAGB-nin fəaliyyəti barədə, görülmüş işlər və gələcək planlar barədə məlumat verib. O deyib: “Leyla xanım Əliyeva bu yaxınlarda, mayın 31-də Həştərxanda RAGB-nin regional nümayəndəliklərinin üzvləri ilə görüşüb. Mühüm məsələlər qaldırılan görüşün iştirakçıları fikir mübadiləsi aparıb, qarşıdakı vəzifələri müzakirə ediblər. Leyla xanım öz çıxışında RAGB-nin idman layihələrinə diqqəti cəlb edib, bizim fəalların bu sahədə qazandığı uğurları qeyd edib. Mənə çox xoşdur ki, siz hamınız sağlam həyat tərzinə böyük diqqət yetirirsiniz. Bizim bugünkü turnirimiz Azərbaycanın istedadlı gənclərini birləşdirir, onların vətənpərvərlik ruhunu möhkəmlədir. Bütün bunlar bizim təşkilatın əsasını təşkil edir. Qarşıda bizi maraqlı layihələr gözləyir. Sizi bu layihələrdə görməyə şad olarıq. Mən hər birinizə yaxşı oyun və gümrahlıq arzu edirəm”.



Sonra komandalar təqdim edilib, onlara təlimat verilib, daha sonra Rusiya Federasiyasının, Azərbaycan Respublikasının və RAGB-nin bayraqları qaldırılıb.

İdman-sağlamlıq turnirinin ən güclü və ən yaxşı iştirakçıları adı uğrunda M.V.Lomonosov adına Moskva Dövlət Universiteti (MDU), RF Hökuməti yanında Maliyyə Universiteti, Ali İqtisad Məktəbini, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetini (MDTU), Q.V.Plexanov adına Rusiya İqtisad Universitetini (RİU), Moskva Dövlət Pedaqoji Universitetini (MDPU), RAGB-nin Kaluqa regional bölməsini təmsil edən 12 komanda mübarizə aparıb.

Yarışlarda RAGB-nin 100-ə yaxın fəal üzvü iştirak edib. Onlar “Friroup”, “Skaladrom”, Kamandan oxatma, “Yüksək şəhərcik”, “Turizm zolağı”, Kanoedə üzmə və digər növlərdə güclərini sınayıblar.

Yarışların yekunlarına əsasən “Panterı” komandası (İ.M.Seçenov adına MDTU) oyunun qalibi olub. İkinci yeri MDPU-nun “Şirlər” komandası, üçüncü yeri MADİ-nin “Qorillalar” komandası tutub. “Canavarlar”, “Şahinlər”, “Ayılar” komandaları qələbə əzminə görə təltif ediliblər. İdman yarışlarının iştirakçıları bu münasibətlə təşkil edilmiş səhra mətbəxində qidalanıblar.

***Fəridə Abdullayeva***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Moskva***

**“XXI əsrin layihəsi” olaraq səciyyələndirilən Trans-Anadolu təbii qaz boru kəməri (TANAP) yalnız Avrasiyada yox, dünyada həyata keçirilən ən nəhəng iqtisadi layihələrdən biridir.**

# SOCAR-ın prezidenti: TANAP yalnız Avrasiya deyil, bütün dünyada həyata keçirilən ən nəhəng layihədir



TANAP barədə fikir və mülahizələrini AZƏRTAC-ın xüsusi müxbiri ilə bölüşən SOCAR-ın prezidenti Rövnəq Abdullayev bildirib ki, Azərbaycanın təşəbbüsü ilə ortaya çıxan bu layihənin bir sıra üstünlükləri var. Enerji təhlükəsizliyi və inkişaf elementlərini özündə birləşdirən TANAP-ın tikintisi qrafiq üzrə, vaxtında və keyfiyyətlə həyata keçirilib.

SOCAR prezidenti deyib: “Əminik ki, TAP layihəsi də nəzərdə tutulan vaxtda istifadəyə veriləcək. Bu xəttin tikintisi qrafiq üzrə həyata keçirilir. 2020-ci ildə TANAP vasitəsilə Azərbaycan qazını bu xəttə ötürməyi planlaşdırırıq”.

# Yeni Azərbaycan Partiyası 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirib

***Dünən Yeni Azərbaycan Partiyasının mərkəzi qərargahında 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirilib. Tədbirdə çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov 15 İyun - Milli Qurtuluş Günü münasibətilə tədbir iştirakçılarını təbrik edib. Əli Əhmədov bildirib ki, Azərbaycanın müasir tarixini Milli Qurtuluş Günündən və bu günə səbəb olan Ümummilli liderimiz Heydər Əliyevin möhtəşəm qayıdışından ayrı təsəvvür etmək mümkün deyil: “Şübhəsiz ki, Ulu öndər Heydər Əliyevin möhtəşəm qayıdışı olmasaydı və milli qurtuluşumuz baş tutmasaydı, tamam fərqli bir Azərbaycanda yaşamağa məhkum olardıq. O Azərbaycan indi bizim üçün dəyərli olan, bizim hər birimizin qürur duyduğumuz Azərbaycandan fərqlənmiş olacaqdı. Ona görə də biz tam məsuliyyətlə Azərbaycanın müasir tarixinin iki fundamental əsasını qeyd edə bilərik.***




Bunun biri Azərbaycanın öz dövlət müstəqilliyini yenidən bərpa etməsidirsə, ikincisi Ümummilli lider Heydər Əliyevin tarixi qayıdışı və Onun Azərbaycana bəxş etdiyi Milli Qurtuluş Günüdür”.

YAP Sədrinin müavini qeyd edib ki, xalqımız tərəfindən 15 İyun - Milli Qurtuluş Günü müasir tariximizin ən önəmli hadisəsi kimi qeyd edilir, dəyərləndirilir. Bu, onunla əlaqədardır ki, insanlar bugünkü həyatlarını, ölkəmizin bugünkü firavanlığını və gələcəklə bağlı aydın görünən perspektivlərini Milli Qurtuluş Günü ilə, Heydər Əliyevin tarixi qayıdışı ilə bilavasitə əlaqələndirirlər. Çünki Azərbaycanın müasir tarixində, hər bir vətəndaşın həyatında baş verən müsbət dəyişikliklər, ilk növbədə, Heydər Əliyevin möhtəşəm qayıdışı və bu qayıdışın yaratdığı qurtuluş məfkurəsi ilə birbaşa bağlıdır. Azərbaycanın sürətli inkişaf dövrünün məhz Milli Qurtuluş Günü ilə başladığını vurğulayan Əli Əhmədov həmin siyasətin bu gün Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirildiyini diqqətə çatdırıb.





YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov çıxışında bildirib ki, 15 İyun Milli Qurtuluş Günü sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. Onun sözlərinə görə, Vətənini, xalqını sevən, həmin çətin, ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələri gözləri ilə görən insanlar üçün 15 iyun əsl qurtuluş tarixi, Azərbaycan xalqının ölüm-dirim mübarizəsinin tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqına arxa, dayaq olan bir insan - Heydər Əlirza oğlu Əliyevdir.

E.İbrahimov bildirib ki, müstəqilliyimizin ilk illəri Azərbaycan xalqı üçün çox ağır dövr olub. Tale elə gətirib ki, 1991-1993-cü illər, müstəqilliyimizin ilk illərinə təsadüf etsə də, ölkəmizin müasir tarixində hərc-mərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xatırlanır. Bütün bunlar isə həmin dövrlərdə yeni yaradılmış müstəqil dövlətə liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət vermək, gələcəyi görmək imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslərin rəhbərlik etməsi ilə əlaqədar baş verirdi. “Belə bir məqamda isə yalnız bir çıxış yolu var idi. Bu çıxış yolu görkəmli siyasi və dövlət xadimi, Naxçıvan Muxtar Respublikasının Ali Məclisin Sədri, Yeni Azərbaycan Partiyasının Sədri Heydər Əliyevin Bakıya dəvət olunmasından ibarət idi. Azərbaycan dövlətçiliyinin gələcəyindən narahatçılıq keçirən ziyalılar Ulu öndər Heydər Əliyevə müraciət etdilər. Əlbəttə ki, sağlam düşüncəli insanlar, ziyalılar AXC-Müsavat hakimiyyətinin Azərbaycanı uçuruma apardığını görürdülər. Ona görə də, onlar haqlı olaraq hesab edirdilər ki, bu vəziyyətdən xalqı yalnız Heydər Əliyev kimi lider xilas edə bilər. Bu müraciətləri nəzərə alaraq Azərbaycan xalqının böyük oğlu 1993-cü il iyunun 9-da Bakıya döndü. Bu dönüş xalqın istəyi, tarixin zərurəti idi. Bu qayıdış insanların qəlbinə bir inam və rahatlıq toxumu səpdi, ölkənin xilas olduğuna inamı artırdı. Beləliklə, Ulu öndər Heydər Əliyevin ikinci dəfə Bakıya qayıdaraq Azərbaycan parlamentinin sədri seçildiyi gün - 15 iyun, tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Bu təqvim Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb və mənim üçün bundan əziz bayram yoxdur. Çünki 15 iyun olmasa idi, nə Azərbaycan, nə də müstəqil dövlət olmayacaqdı. Ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı Azərbaycan dövlətini, müstəqilliyini, xalqımızın qürurunu, tarixini, bu gününü özünə qaytardı”- deyə, YAP İdarə Heyətinin üzvü vurğulayıb.

Tədbirdə YAP Nəsimi rayon təşkilatı Gənclər Birliyinin üzvü Rəna Süleymanlı çıxış edərək 15 İyun - Milli Qurtuluş Gününün Azərbaycan tarixindəki rolu və əhəmiyyəti haqqında fikirlərini bildirib. O deyib ki, Azərbaycanın milli qurtuluşdan başlanan inkişaf və tərəqqisi bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. R.Süleymanlının sözlərinə görə, bütün Azərbaycan vətəndaşları, o cümlədən gənclər müstəqil Azərbaycanın daha da inkişafı və güclənməsi üçün dövlət başçısının ətrafında sıx birləşiblər: “Müasir Azərbaycan gəncliyi də qurtuluş məfkurəsinin bəhrəsidir. Əgər qurtuluş olmasaydı, bugünkü xoşbəxt Azərbaycan gəncliyindən söhbət gedə bilməzdi. Biz özümüzü xoşbəxt hesab edirik ki, güclü Azərbaycan dövlətində yaşayırıq. Dövlətimiz gəncliyin inkişafı üçün bütün imkanları yaradıb. Öz növbəsində gənclərimiz də müstəqil dövlətimizi qorumalı, Azərbaycanı gözü götürməyən qüvvələrə tutarlı cavab verməlidir. Sevindirici haldır ki, Azərbaycanda məhz belə bir vətənpərvər, intellektual gənclik formalaşıb”.



# Naxçıvanda Milli Qurtuluş Günü qeyd olunub

***1993-cü il iyunun 15-də xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev Azərbaycanı üzləşdiyi bəlalardan xilas edib, müstəqilliyimizi qoruyub saxlayıb, sabitlik və sürətli sosial-iqtisadi inkişafın əsasını qoyub. Bu gün müstəqil Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası ulu öndər Heydər Əliyevin yolu ilə inamla irəliləyir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sosial, iqtisadi, siyasi, mədəni həyatın bütün sahələrində uğurlar qazanılır.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iyunun 14-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında 15 İyun - Milli Qurtuluş Günü münasibətilə Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının təltiflərinin, Məmməd Səid Ordubadinin "Qılınc və qələm" tarixi dram əsəri əsasında hazırlanmış tamaşanın təqdimatı olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak edib.



Əvvəlcə Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının təltiflərinin təqdimatı keçirilib.

Qeyd olunub ki, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 fevral, 9 mart, 16 mart, 26 mart, 4 may, 18 may, 22 may, 24 may və 31 may tarixli sərəncamları ilə muxtar respublikada 15 nəfər "Tərəqqi", 2 nəfər "Vətən uğrunda", 4 nəfər "Hərbi xidmətlər görə", 1 nəfər "Dövlət qulluğunda fərqlənməyə görə", 2 nəfər isə "Miqrasiya orqanlarında qulluqda fərqlənməyə görə" medalları ilə təltif olunub, 2 nəfərə Azərbaycan Respublikasının "Əməkdar mədəniyyət işçisi" fəxri adı verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 5 may tarixli Sərəncamı ilə isə 1 nəfər Naxçıvan Muxtar Respublikasının "Əməkdar dövlət qulluqçusu" fəxri adı ilə təltif olunub. Ali Məclisin Sədri təltiflərin vəsiqə və döş nişanlarını təqdim edib. Azərbaycan Respublikasının "Əməkdar mədəniyyət işçisi" fəxri adı ilə təltif olunan Akif Hacıyev minnətdarlıq edərək deyib: Müstəqil Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası ilə qürur duyuruq. Gözlərimizin önündə 20 il bundan əvvəlki Naxçıvanı canlandırarkən Milli Qurtuluşun, ulu öndər Heydər Əliyev siyasi xəttinin bəhrəsini daha aydın görürük. Naxçıvan tarixdə iki dəfə müqəddəsləşib: birinci dəfə Nuh peyğəmbər bu torpağa ayaq basarkən, ikinci dəfə isə ulu öndərimiz Heydər Əliyev 1990-cı ildə Naxçıvana gələrək buradan ölkəmizin xilasına başlayarkən. Ümummilli Liderimiz Naxçıvanı qorudu, bu qədim diyarda başladığı tədbirlər nəticəsində xalqımızı həqiqi müstəqilliyə qovuşdurdu. Bu siyasətin davamı ölkəmizi və doğma Naxçıvanımızı daha uca zirvələrə qaldırır. Muxtar respublikada aparılan geniş quruculuq işləri bütün sahələri və yaşayış məntəqələrini əhatə edib. Yeni səhiyyə, təhsil, mədəniyyət müəssisələri, rahat və müasir yollar, istehsal sahələri tikilib istifadəyə verilir, hər bir sakinə qayğı göstərilir. Qeyd olunanlar yaşadığım Nehrəm kəndinin timsalında da özünü göstərir. Yaradılan şərait, xüsusilə Nehrəmdə Heydər Parkının istifadəyə verilməsi sakinlər tərəfindən minnətdarlıqla qarşılanır. Biz ulu öndər Heydər Əliyev siyasətinə sadiq və vətənpərvər gənclər böyüdürük. Qarşımızda bir məqsəd var: o da əldə olunan inkişafa öz töhfəmizi vermək, muxtar respublika rəhbərinin etimadını layiqincə doğrultmaqdır.



Naxçıvan Muxtar Respublikasının "Əməkdar dövlət qulluqçusu" fəxri adı ilə təltif olunan Ülkər Bayramova minnətdarlıq edərək deyib ki, göstərilən bu etimad kollektivimizin əməyinə verilən yüksək qiymətdir. Bu, məsuliyyətimizi daha da artırır. Ulu öndərimiz Heydər Əliyev deyirdi ki, "İnsan hüquqları bəşəriyyətin ən ali dəyəridir". Dahi rəhbərin bu sahədə müəyyənləşdirdiyi siyasət muxtar respublikada uğurla reallaşdırılır. İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) fəaliyyəti üçün hər cür şərait yaradılıb. İnsan hüquq və azadlıqlarının qorunması istiqamətində ardıcıl tədbirlər görülür. İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) kollektivi bundan sonra da qarşıya qoyulan vəzifələrin icrasında səylə çalışacaqdır.

Sonra "Qılınc və qələm" tarixi dramı əsasında hazırlanmış tamaşaya baxış olub. Məmməd Səid Ordubadi ədəbiyyat tariximizin görkəmli simalarından biridir. O, bütün yaradıcılığı boyu xalqımızın keçmişini, qəhrəmanlıq səhifələrini, inkişaf və azadlıq mübarizələrini ardıcıl olaraq tədqiq və təsvir edib, romanlar yazıb. Dövlətçilik tariximizdən bəhs edən "Qılınc və qələm" romanı da Naxçıvan Dövlət Musiqili Dram Teatrında ilk dəfə səhnələşdirilib.

Tarixi faktlarla bədii təxəyyülün ustalıqla əlaqələndirildiyi tamaşada ölkənin xarici əlaqələri, dövrün ədəbiyyat və incəsənəti, sənətkarları, dövlət xadimləri, xalqın azadlıq mübarizəsi əks olunub. Zəngin obrazlar yaradılmış tamaşada Azərbaycanın dövlətçilik tarixinin ən böyük səhifələrindən birinin - Atabəylər dövrünün hərtərəfli mənzərəsi əks olunub. Dahi Azərbaycan şairi Nizami Gəncəvinin yaşadığı dövr, Azərbaycanın XII əsrdə işğalçılara qarşı mübarizəsi, xalq azadlıq hərəkatı ustalıqla səhnələşdirilib. Tamaşada iki qəhrəmana daha geniş yer verilib. Bunlardan biri dahi şairimiz Nizami, digəri isə Fəxrəddindir. Nizami xalq qəhrəmanı Fəxrəddinin müdrik məsləhətçisidir. Səhnə əsərində Nizami qələm, Fəxrəddin isə qılınc simvolu kimi rəmzləşdirilib.

Azərbaycan Respublikasının Əməkdar Artisti Tofiq Seyidovun quruluş verdiyi tamaşada aktyorlardan Nəsimi Məmmədzadə, Səyyad Məmmədov, Nazlı Hüseynquliyeva, Nurbəniz Niftəliyeva, Azərbaycan Respublikasının Xalq artistləri Həsən Ağasoy, Rövşən Hüseynov, Azərbaycan Respublikasının Əməkdar artistləri Bəhruz Haqverdiyev, Əbülfəz İmanov və digərləri uğurlu səhnə həllinə nail oldular.

Tamaşadan sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov səhnə arxasına keçərək yaradıcı heyətlə görüşüb.

Ali Məclisin Sədri uğurlu tamaşaya görə kollektivə təşəkkürünü bildirərək deyib: Azərbaycan ərazisində tarixən mövcud olan dövlətlər həm də dövlətçilik tariximizlə bağlı əsərlərin yaranmasına səbəb olmuşdur. Naxçıvan teatrında dövlətçilik tariximizlə bağlı yazılmış əsərlər - Nəriman Həsənzadənin "Atabəylər", Nəriman Nərimanovun "Nadir şah", Həmid Arzulunun "Əlincə qalası" əsərləri tamaşaya qoyulmuşdur. Bu gün isə Məmməd Səid Ordubadinin "Qılınc və qələm" romanı Naxçıvan teatrında ustalıqla səhnələşdirilmişdir.

Ali Məclisin Sədri deyib: Dövlətçiliklə bağlı səhnə əsərlərinin yaradılması istedad tələb edir. Bunun üçün gərək böyük yazıçı, dramaturq olasan, öz ölkənin, xalqının tarixini və əsərin əhatə etdiyi dövrü yaxşı biləsən. "Qılınc və qələm" tamaşasında aktyor seçimindən tutmuş səhnə tərtibatına qədər bütün işlər ustalıqla görülmüşdür. Hər tamaşada bir obraz daha çox diqqəti cəlb edir. Bu tamaşada da Qətibə xatın obrazı mükəmməl yaradılmışdır. Bu cür obrazların yaradılması üçün gərək aktyorda istedad olsun. Tamaşada hər bir aktyorun istedadı görünürdü. Zəhmət çəkiləndə istənilən uğura nail olmaq mümkündür. Ancaq çəkilən zəhmətə, o tamaşaya, o rola ürəklə bağlananda isə həmin obraz təkcə oynanılmır, həm də yaradılır və yaşadılır. "Qılınc və qələm" tamaşasında da obrazları yaradan hər bir aktyor həm də öz vətəndaş sevgisini ortaya qoymuşdur. Ali Məclisin Sədri kollektivi təbrik edib, onlara yeni yaradıcılıq uğurları arzulayıb. Tamaşanın rejissoru, Azərbaycan Respublikasının Əməkdar Artisti Tofiq Seyidov əməklərinə verilən yüksək qiymətə və Naxçıvan teatrının fəaliyyəti üçün yaradılan şəraitə görə kollektiv adından Ali Məclisin Sədrinə minnətdarlıq edib. Sonda xatirə şəkli çəkdirilib.

# 317 nömrəli məktəbdə son zəng



***Dünən Suraxanı rayonu, Zığ qəsəbəsindəki 317 nömrəli məktəbin XI sinif məzunları "Son Zəng"lərini qeyd ediblər. SİA-nın xəbərinə görə, bayram tədbiri təntənəli şəkildə təşkil olunub.***

Məktəbin rəhbərliyi, valideynlər və şagirdlər tərəfindən böyük hazırlıq işləri aparılıb, son zəngin yüksək səviyyədə, bütün məzunların və iştirakçıların uzun illər yadında qalacaq əlamətdar hadisəyə çevrilməsi üçün əllərindən gələni ediblər. Bu münasibətlə təşkil olunan tədbiri məktəbin direktoru Əliqismət Səfərov açaraq on birinciləri təbrik edib və onların valideynlərinə öz arzularını çatdırıb.



Tədbirdə iştirak edən valideynlər və digər qonaqlar da məzunlara və məktəbin kollektivinə uğurlar arzulayıblar. Məzunlar məktəbə, son zəngə aid şeirlər söyləyib, nəğmələr səsləndirib, rəqslər nümayiş etdiriblər. Məzunlar bir-birlərinə öz ürək sözlərini köynəkləri üzərinə yazaraq bildiriblər. Sonda məzunlar üçün məktəb həyətində son dəfə son zəng çalınıb.

# Respublikanın ümumtəhsil məktəblərində 80 mindən çox məzun üçün "son zəng" çalınıb



***İyunun 14-də 2017-2018-ci tədris ilində respublikanın ümumtəhsil məktəblərinin XI sinfini bitirən 83.001 şagird üçün "son zəng" çalınıb. AZƏRTAC xəbər verir ki, cari tədris ilində respublikanın ümumtəhsil məktəblərinin IX sinfini 111.257, qiyabi (axşam) ümumtəhsil məktəblərini isə 658 şagird bitirir.***

2017-2018-ci tədris ilində respublika üzrə 4442 ümumtəhsil məktəbində fəaliyyət göstərən 4767 məktəbəhazırlıq qrupunu 93.960 uşaq başa vurub. Növbəti tədris ilində dövlət hesabına fəaliyyət göstərən məktəbəhazırlıq qruplarına respublika üzrə cəlb olunacaq uşaqların sayının beşyaşlıların 75 faizini təşkil edəcəyi gözlənilir. 2018-2019-cu tədris ilində respublikanın ümumtəhsil məktəblərinin birinci siniflərinə 165.780 uşağın qəbulu proqnozlaşdırılır.

Təhsil naziri Ceyhun Bayramov "son zəng" tədbiri haqqında əmr imzalayıb. Əmrə əsasən, "son zəng" tədbirləri iyunun 14-də hər bir təhsil müəssisəsinin ərazisində təşkil olunacaq. Sənəddə məktəb rəhbərlərinə "son zəng" tədbirlərinə valideyn komitələri, valideyn-müəllim assosiasiyaları və ictimaiyyət nümayəndələrinin, məktəbin sabiq məzunlarının dəvət olunması tövsiyə edilib. Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi, Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Gəncə Şəhər Təhsil İdarəsi, rayon (şəhər) təhsil şöbələri, Təhsil Nazirliyinin birbaşa tabeliyindəki ümumtəhsil müəssisələrinin rəhbərləri tərəfindən "son zəng"in məzmunlu keçirilməsi, tədbir müddətində şagirdlərin təhlükəsizliyinin təmin olunması istiqamətində zəruri tədbirlərin görülməsi məsələləri də əmrdə əksini tapıb.



# Xalqın xilaskarı - Ulu Öndər Heydər Əliyev böyük əməllər sahibi idi

***1993-cü ilin 15 iyun günü Ulu Öndər Heydər Əliyevin Ali Sovetin sədri vəzifəsinə seçildiyi gün ilə Azərbaycan tarixinə, Azərbaycan xalqının milli qürurunun, mənəviyyatının Qurtuluşu kimi qızıl hərflərlə yazıldı. Həmin gün başlanmış bu uzun yol indiyə qədər də davam edir. Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra öz xalqı və doğma vətəni üçün həyata keçirdiyi işlərin siyahısı çox genişdir. Onun qədirbilən xalqımızın qarşısında, tariximizin önündə ən böyük xidməti dövlət müstəqilliyimizi qoruyub-saxlamaq və inkişaf etdirmək oldu. Azadlığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub-saxlamaq bir o qədər də mürəkkəbdir. Dövlətimizin qorunub-saxlanması isə azadlığımızın, müstəqilliyimizin, qorunub-saxlanması, qurtuluşu deməkdir.***

Ulu Öndər Heydər Əliyevin qətiyyəti sayəsində Azərbaycanda sabitlik və əmin-amanlıq bərqərar oldu. Böyük dövlət xadimi kimi Onun ən başlıca qələbəsi də, məhz daxili ictimai-siyasi sabitliyi yaratmasından ibarətdir. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı yeni dövrün başlanğıcından xəbər verirdi.

Xilaskarlıq missiyasını üzərinə götürmüş Möhtərəm Ulu Öndər Heydər Əliyev neft strategiyasında da dönüş yaratdı. 1994-cü ilin fevral ayında bu istiqamətdə Ulu Öndər Heydər Əliyev tərəfindən ARDNŞ-in rəhbəri və ekspertlərindən ibarət danışıqlar qrupu yaradıldıqdan sonra vəziyyət kökündən dəyişdi.

Ulu Öndər Heydər Əliyevin yaradıcı siyasəti nəticəsində yeni neft strategiyası işləndi və onun rəhbərliyi ilə Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq", "Günəşli", sonradan "Əsrin müqaviləsi" adını almış Birinci sazişin imzalanması həyata keçirildi. Bu saziş digər neft sazişlərinin başlanmasına geniş yol açdı.

"Əsrin müqaviləsi" müstəqilliyimizin, dövlətçiliyimizin möhkəmləndirilməsi və inkişaf etdirilməsi baxımından dəyərli akt kimi özünün təsdiq aktı oldu. Neft strategiyasının, bilavasitə həyata keçirilməsində Azərbaycan Dövlət Neft Şirkətinin Birinci vitse-Prezidenti İlham Əliyevin böyük rolu oldu. İqtisadiyyatı dərindən bilən, güclü analitik təfəkkürə malik olan Cənab İlham Əliyevin Neft Şirkətinə daxil olan xarici investorlarla iş apararkən, onlarla yüksək səviyyədə dialoqa girərək nəticə etibarı ilə məqsədyönlü təkliflər irəli sürməsi Onun tükənməz enerjiylə, perspektivli hadisələri dərindən təhlil edib düzgün nəticə çıxarmaq qabiliyyətinə malik olan dərin zəka sahibi olduğunu göstərir. Onun neft strategiyası ilə bağlı fəaliyyəti göstərdi ki, xalqını sevən, dövlətçilik və milli mənafelərlə bağlı məsələlərdə iradəli addımlar atmağı bacaran Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı ölkə iqtisadiyyatının bütövlüyünü qoruyub-saxlaya bilmək bacarığına malikdir. Neft Şirkətinin maddi imkanlarının genişlənməsi, neft fondunun yaranması Azərbaycanın yeni ictimai-siyasi mühitində inkişaf etməkdə olan gəncliyə yönəldi. Gənclərlə iş onların inkişafına göstərilən qayğı geniş vüsət aldı.

Xalqın beynəlxalq arenada təmsilinin ən mühüm vasitələrindən biri idmandır. Möhtərəm İlham Əliyevin özünün dediyi kimi, "idman hər bir vətənpərvər insanda vətənpərvərlik hissini daha da gücləndirir". Bu baxımdan, Cənab İlham Əliyevin respublikada Olimpiya Hərəkatının inkişafına idmana hərtərəfli qayğısı Azərbaycanın milli maraqlarına və məqsədlərinə xidmətin bariz nümunəsidir.

Gənclərin idmana axını və onların beynəlxalq yarışlarda qazandıqları uğurlar doğma Azərbaycanımıza gətirdikləri medallar hər birimizdə qürur hissi doğurur və Azərbaycanı şöhrətləndirir.

Dövlət siyasətini ən məharətlə yerinə yetirən gənc lider Cənab İlham Əliyev qısa müddət ərzində özünü yüksək potensiala malik, səriştəli diplomat və şəxsiyyət kimi təsdiqləmişdir. Cənab İlham Əliyevin bu tarixi missiyanın öhdəsindən uğurla gəlməsi Onun Ulu Öndər Heydər Əliyev dühasından bəhrələnməsidir.

Ulu Öndər Heydər Əliyev YAP-ın timsalında milli məfkurəyə malik siyasi məktəb yaratmağa, praktiki dövlət-idarəçilik akademiyası formalaşdırmağa nail oldu. Ulu Öndər Heydər Əliyev ideologiyası, Onun yeritdiyi siyasət heç vaxt zəifləməyəcək. Çünki Onun davamçısı Cənab İlham Əliyevdir. Allah dayaq olsun!

***Mürsəlova Ofelya Mürsəl qızı,***
***ADPU-nun pedaqogika kafedrasının baş müəllimi***

# Mövlud Çavuşoğlu: TANAP möhtəşəm layihədir



***Biz istəyirik ki, qardaş Azərbaycandan daha çox neft və qaz alaq. Yenicə istifadəyə verilmiş TANAP buna əlverişli imkan yaradır. Bu, möhtəşəm bir layihədir. AZƏRTAC xəbər verir ki, bu sözləri azərbaycanlı jurnalistlərin suallarını cavablandıran Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu deyib. Türkiyə və Azərbaycanın bir sıra ortaq layihələr həyata keçirdiyini qeyd edən nazir TANAP-ın belə mühüm layihələrdən biri olduğunu vurğulayıb. O qeyd edib ki, ötən ilin sonunda Bakı-Tbilisi-Qars layihəsinin açılışı oldu. Bu da böyük ortaq layihəmizdir. Bizim nəqliyyat layihələrində güclü iş birliyimiz var. Tarixi İpək yolunu dəmir yolu vasitəsilə yenidən həyata keçiririk.***

Mövlud Çavuşoğlu vurğulayıb ki, Azərbaycanda hər sahədə inkişaf gedir. Ölkələrimiz qarşılıqlı şəkildə investisiyalar yatırırlar. Bizim bütün sahələrdə yaxın əməkdaşlığımız var. Azərbaycan və Türkiyə qardaş dövlətlərdir. Bizim birimizin sabitliyi və əmin-amanlığı, digərimizin sabitliyi və əmin-amanlığıdır. Qarabağ məsələsi təkcə Azərbaycanın məsələsi deyil. Azərbaycanın torpaqlarının işğalı bizim də problemimizdir. Nazir qeyd edib ki, Bakıda yerləşən Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu vasitəsilə türk dünyasının ortaq dəyərləri öyrənilir. Bu istiqamətdə də əməkdaşlıqlar həyata keçirilir.

# TANAP-ın açılışı: "Enerjinin İpək yolu"nun geosiyasi əhəmiyyəti

***Azərbaycan müstəqil dövlət kimi bir sıra beynəlxalq layihələrin təşəbbüskarıdır. Onların sırasında TANAP ayrıca yer tutur. Çünki bu layihədən öncə gözlər "Nabucco" adlanan enerji layihəsinə dikilmişdi. Ancaq Qərb ölkələrinin günahı ucbatından "Nabucco"dan imtina edildi. O zaman Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Türkiyədə yeni layihənin həyata keçirilməsi ilə bağlı müzakirələr aparıldı. İki qardaş ölkə rəhbərliyi TANAP adlanan layihəni hazırlamaq qərarına gəldilər. O zaman buna qarşı da inamsızlıq yaratmağa və onun qeyri-real olduğu fikrini aşılamağa çalışanlar tapıldı. Lakin Azərbaycan və Türkiyə liderlərinin siyasi qətiyyəti nəticəsində proses dayanmadı. İyunun 12-də isə Əskişəhərdə TANAP-ın açılış mərasimi baş tutdu! Bu hadisənin geosiyasi və tarixi əhəmiyyəti üzərində dayanmağa böyük ehtiyac duyuruq.***


NEWTIMES ANALYTICAL INFORMATION
THE THINKING OF FUTURE
BİZ DÜNYA SİYASƏTİNİN BÜTÜN SİRLƏRİNİ AÇIRIQ
SİYASƏT | GEOSİYASƏT | İQTİSADİYYAT | BEYNƏLXALQ MÜNASİBƏTLƏR | QLOBAL PROSESLƏR VƏ TRENDLƏR | MÜSAHİBƏLƏR | ŞƏRHLƏR
BEYNƏLXALQ TƏŞKİLATLAR | AVROPA | ASİYA | AMERİKA | AFRİKA | AVSTRALİYA VƏ OKEANİYA

TANAP-ın açılışı: "Enerjinin İpək yolu"nun geosiyasi əhəmiyyəti

Siz buradasınız: Əsas səhifə »» BEYNƏLXALQ TƏŞKİLATLAR »» 0 şərh

1260 Yazı aralığı Font Ölçüsü Çap

Newtimes.az
editor@newtimes.az
Müəllifin digər yazıları
14.06.2018 10:00

Bakı, 14 iyun 2018 – Newtimes.az

Azərbaycan müstəqil dövlət kimi bir sıra beynəlxalq layihələrin təşəbbüskarıdır. Onların sırasında TANAP ayrıca yer tutur. Çünki bu layihədən öncə gözlər "Nabucco" adlanan enerji layihəsinə dikilmişdi. Ancaq Qərb ölkələrinin günahı ucbatından "Nabucco"dan imtina edildi. O zaman Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Türkiyədə yeni layihənin həyata keçirilməsi ilə bağlı müzakirələr aparıldı. İki qardaş ölkə rəhbərliyi TANAP adlanan layihəni hazırlamaq qərarına gəldilər. O zaman buna qarşı da inamsızlıq yaratmağa və onun qeyri-real olduğu fikrini aşılamağa çalışanlar tapıldı. Lakin Azərbaycan və Türkiyə liderlərinin siyasi qətiyyəti nəticəsində proses dayanmadı. İyunun 12-də isə Əskişəhərdə TANAP-ın açılış mərasimi baş tutdu! Bu hadisənin geosiyasi və tarixi əhəmiyyəti üzərində dayanmağa böyük ehtiyac duyuruq.

Geosiyasi reallıq və siyasi iradə: Azərbaycan-Türkiyə əməkdaşlığının enerji aspekti

Qoşulu olduğu bölmələr
beynəlxalq münasibətlər
qlobal proseslər və trendlər
iqtisadiyyat
sivilizasiyalararası dialoq
beynəlxalq təşkilatlar
şərhlər
münaqişələr

Müəllifin digər yazıları
TANAP-ın açılışı: "Enerjinin İpək yolu"nun geosiyasi əhəmiyyəti
Kanada sammiti: G7-nin riskləri və qeyri-müəyyənlikləri
Rəsmi İrəvanın siyasi iflası:

## Geosiyasi reallıq və siyasi iradə: Azərbaycan-Türkiyə əməkdaşlığının enerji aspekti

Türkiyənin Əskişəhər şəhəri iyunun 12-də tarixi bir gün yaşadı. Orada Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Ukrayna dövlət başçısı Petro Poroşenko, Serbiya Prezidenti Aleksandr Vuciç və Şimali Kipr xalqının lideri Mustafa Akıncı Trans-Anadolu qaz boru kəməri layihəsinin açılışını etdilər. Təntənəli mərasimdə çıxış edən ölkə rəhbərləri bu layihənin geosiyasi, iqtisadi və mədəni töhfələrindən bəhs etdilər. Ekspertlərin marağına səbəb olan açılış mərasimində ifadə edilən fikirlər söhbətin kifayət qədər ciddi bir prosesdən getdiyini təsdiq edir.

Mərasimdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev tarixi və geosiyasi əhəmiyyətli bir sıra maraqlı məqamları vurğulayıb (bax: Prezident İlham Əliyev: TANAP-ın istismara verilməsi Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürüdür / AZƏRTAC, 13 iyun 2018).

Öncə Azərbaycan Prezidenti Türkiyənin dünyada oynadığı geosiyasi rolu vurğulayıb. Bakı Ankaranın hər bir uğuruna sevinir. Hazırda Türkiyə dünya çapında böyük gücə çevrilib və "dünya gündəliyini müəyyən edən" ölkələrdən biridir. "Türkiyənin gücü bizim gücümüzdür və bizim gücümüz birliyimizdədir" (bax: əvvəlki mənbəyə). İlham Əliyev Türkiyənin qlobal geosiyasi nüfuzunun artmasını ifadə etməsi əhəmiyyətli məqamdır.

Bu, ilk növbədə, Türkiyənin dünyada söz sahibi olan ölkələr sırasına daxil olmasının Azərbaycanı çox məmnun etdiyini ifadə edir. Yalnız ona görə yox ki, Türkiyə Azərbaycana qardaş dövlətdir. Burada daha çox Türkiyənin qarşılıqlı faydalı əməkdaşlıq kursu yeridən ölkə kimi uğur qazana bilməsi önə çəkilir. Başqalarına əzələ nümayiş etdirib və ya hədə gəlib nəyəsə nail olmaq yolunun sonu puçdur. O, bütövlükdə bəşəriyyəti faciəyə aparır. Bu səbəbdən həmin kursu seçən ölkələrin uğuru davamlı ola bilməz.

Türkiyə isə öz ədaləti və qarşılıqlı faydalı əməkdaşlıq siyasəti ilə dünya miqyasında nüfuzunu yüksəldən dövlətdir. Və buna Azərbaycan çox sevinir, çünki Azərbaycan da bərabərhüquqlu, faydalı əməkdaşlığa dayanan inkişaf kursu seçib. Bu mənada "Türkiyənin gücü bizim gücümüzdür" və "bizim gücümüz birliyimizdədir". Əlbəttə, qarşılıqlı faydalı əməkdaşlığı inkişafın əsas punktu hesab edən ölkələrin birləşməsi gərəkdir. Bu, bəşəriyyəti ədalətsiz ikili standartlar siyasətindən xilas edə və insanlara rifah gətirə bilər.

Deməli, Azərbaycan Prezidenti məsələyə çox geniş və əhəmiyyətli bir mövqedən yanaşır. İlham Əliyev uzaqgörən dövlət xadimi kimi Azərbaycan-Türkiyə əlaqələrini dövlətçilik prizmasından qlobal gerçəkliklər kontekstində qiymətləndirir. Burada rasional və ədalətli yanaşma özünü göstərir. Azərbaycan münasibətləri keçici emosional faktorlar üzərində deyil, ciddi dövlətçi prinsiplər əsasında beynəlxalq hüquqa uyğun qurmaqdadır. Həm də məhz bu səbəbdəndir ki, "Türkiyə-Azərbaycan birliyi, qardaşlığı həm ölkələrimiz üçün, həm xalqlarımız üçün, bölgəmiz üçün, Avrasiya üçün önəmli amildir" (bax: əvvəli mənbəyə).

Azərbaycanın dövlət başçısının bu geniş geosiyasi baxış bucağı altında TANAP-ı tarixi bir layihə kimi Azərbaycanla Türkiyənin növbəti zəfəri olaraq qiymətləndirməsi çox əhəmiyyətlidir və tam qəbul ediləndir. "Bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq. Bu tarix işbirliyi tarixidir, bu tarix sabitlik tarixidir. Enerji layihələrimiz bölgəmizə sabitlik gətirir. Bu layihələrdə iştirak edən bütün ölkələr, bütün şirkətlər fayda görür, xalqlar fayda görür" (bax: əvvəlki mənbəyə).

## Növbəti mərhələ: yeni layihələrə aparan yol

İlham Əliyevin bu fikirləri işığında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın öz çıxışında ifadə etdiyi bir sıra tezisləri daha aydın dərk etmək imkanı yaranır. R.T.Ərdoğan TANAP-ı "Enerjinin İpək yolu" adlandırıb (bax: Muhteşem açılış / "Milliyet", 13 iyun 2018). Sözlərinə davam edərək Türkiyə dövlət başçısı, bunun Azərbaycanla Türkiyənin enerjini savaş yaradan amil kimi deyil, əməkdaşlıq, inkişaf, xalqların rifahına xidmət etmək imkanı olaraq görməsi nəticəsində həyata keçdiyini ayrıca vurğulayıb.

Həmin tezisdən çıxış edən R.T.Ərdoğan TANAP-ın yeni-yeni böyük layihələrin reallaşmasına təkan verəcəyini ifadə edib (bax: əvvəlki mənbəyə). Deməli, iki qardaş ölkə başladıqları bu faydalı əməkdaşlıq kursunu nümunə kimi daha geniş miqyasda tətbiq etməkdə qərarlıdırlar. Bunu bütövlükdə bəşəriyyətin sabitliyi və rifahı naminə etməkdə israrlıdırlar. Təsadüfi deyil ki, həm Türkiyə, həm də Azərbaycanın dövlət başçıları TANAP-ın regional əhəmiyyətini, çoxlu sayda xalqlara verəcəyi töhfəni mütləq şəkildə vurğulayıblar.

Azərbaycan və Türkiyə liderləri TANAP-ın həyata keçməsində qətiyyətli siyasi iradənin oynadığı böyük rolu vurğulayıblar. İki strateji tərəfdaş dövlətin rəhbərlərinin nümayiş etdirdikləri yüksək siyasi iradə bu layihəyə mane olmağa çalışanların yaratdıqları əngəlləri uğurla aradan qaldırıb. R.T.Ərdoğan bununla bağlı Prezident İlham Əliyevə xüsusi təşəkkürünü bildirib. Azərbaycan Prezidenti də öz çıxışında R.T.Ərdoğanın yüksək xidmətlərini ayrıca vurğulayıb.

TANAP bütövlükdə "Cənub Qaz Dəhlizi" layihəsi çərçivəsində konkret əhəmiyyət kəsb edir. "Cənub Qaz Dəhlizi" dörd elementdən ibarətdir: birincisi, "Şahdəniz-2" yatağı, ikincisi, Cənubi Qafqaz boru xətti, üçüncüsü, TANAP və dördüncüsü - TAP. Trans-Adriatik (TAP) qaz boru kəməri Türkiyə-Yunanıstan arasında inşa edilən boru xəttidir və onun 82 faizi artıq hazırdır. Bununla da Xəzərdən başlayan yol Avropaya qədər uzanır. Azərbaycan nefti, R.T.Ərdoğanın ifadəsi ilə desək, "Xəzər nefti Avropaya nəql edilir". Bu prosesdə Azərbaycan və Türkiyə ilə yanaşı, bir neçə Avropa ölkəsi də iştirak edir. Açılış mərasimində isə Serbiya və Ukraynanın dövlət başçıları iştirak ediblər. Ukrayna Prezidenti Petro Poroşenko bu layihədən faydalanmaq istədiklərini ifadə edib. O, həm də bu kimi layihələrin bütövlükdə Avropanı enerji asılılığından xilas etdiyini söyləyib.

Bütün bunların fonunda TANAP-ın Avropa üçün oynadığı geosiyasi rol əhəmiyyətli görünür. Hər şeydən əvvəl, TANAP Avropanın enerji ilə təchizatını şaxələndirir. Müxtəlif qaynaqlardan alınan enerji riskli situasiyaların sayını azaldır. Bu mənada TANAP Avropanın enerji təhlükəsizliyində ciddi rol oynayır.

Bundan başqa, TANAP Avropa ilə Asiya arasında səmərəli əməkdaşlıq körpüsü funksiyasını yerinə yetirir. Onun verəcəyi töhfələr mütləq daha geniş miqyasda analoji əməkdaşlıq variantlarının işlənməsi zərurətini dünyaya sübut edəcək. Bu baxımdan TANAP həm də qlobal əməkdaşlıq üçün yeni bir motivasiyadır.

Nəhayət, ekspertlərə görə, TANAP daha çox sayda Avropa ölkəsini bu layihəyə qoşulmağa təhrik edir. TANAP-ın ilk mərhələdə nəql gücü 16 milyard kubmetr qazdırsa, üçüncü mərhələdə o, 31 milyard kubmetr səviyyəsinə çıxa bilər. Bu da bir layihə üçün geniş imkanlar deməkdir. Əgər Mərkəzi Asiyadan gələ biləcək enerji nəqli TANAP-a qoşulsa, daha güclü bir beynəlxalq layihə alınar. Bu da sözün əsl mənasında dünyanın enerji xəritəsində əsaslı dəyişiklik deməkdir. Dünya enerji nəqlinin diversifikasiyası nəticəsində xeyli təhlükəsiz enerji modelinə sahib olacaq.

Vurğulanan fikirlərin işığında Prezident İlham Əliyevin açılış mərasimindəki çıxışında ifadə etdiyi aşağıdakı tezislər son dərəcə qiymətlidir: "Cənub Qaz Dəhlizi" enerji təhlükəsizliyi layihəsidir. Enerji təhlükəsizliyi isə hər bir ölkənin milli təhlükəsizliyi məsələsidir. "Cənub Qaz Dəhlizi"nin önəmi məhz bundadır - enerji təhlükəsizliyi və enerji resurslarının şaxələndirilməsi. "Cənub Qaz Dəhlizi" vasitəsilə Azərbaycan qazı yeni yollarla Türkiyəyə və Avropa bazarlarına çıxarılacaqdır. "Cənub Qaz Dəhlizi" həm yeni yollar, həm də yeni mənbə layihəsidir. Bu, sözün əsl mənasında, enerji şaxələndirilməsi məsələsinə xidmət göstərir" (bax: Prezident İlham Əliyev: TANAP-ın istismara verilməsi Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürüdür / AZƏRTAC, 13 iyun 2018). Deməli, TANAP bir prosesin sonudursa, digərinin başlanğıcıdır. Azərbaycan-Türkiyə əməkdaşlığının əsl mahiyyəti də bundan ibarətdir!

***Newtimes.az***

## Vüqar Rəhimzadə: "Azərbaycan və Türkiyə XXI əsrin enerji xəritəsini birlikdə cızır"



"İyunun 12-də Azərbaycan dünya enerji tarixində daha bir möhtəşəm uğura imza atdı. Türkiyənin Əskişəhər şəhərində TANAP qaz kəmərinin rəsmi açılış mərasimi keçirildi. Bu tarixi hadisə həm Azərbaycan-Türkiyə dostluq və qardaşlığının ən yüksək səviyyəyə çatdığını, həm də Azərbaycanın Avropanın enerji təhlükəsizliyi məsələsində etibarlı tərəfdaşa çevrildiyini nümayiş etdirir. TANAP-ın istifadəyə verilməsi mərasimində çıxış edən Möhtərəm Prezidentimiz İlham Əliyevin qeyd etdiyi kimi, Türkiyə-Azərbaycan birliyi, qardaşlığı ölkələrimiz, bölgəmiz və Avrasiya üçün önəmlidir. "Türkiyənin gücü bizim gücümüzdür və bizim gücümüz birliyimizdədir. Bu gün dünyada bir-birinə bu qədər yaxın olan, bir-birini bu qədər dəstəkləyən ikinci ölkələr tapmaq çox çətindir" deyən dövlətimizin başçısı xüsusi olaraq vurğulayıb ki, iki qardaş ölkə XXI əsrin enerji tarixini birlikdə yazır. Bu fikirləri KİV-ə açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, bizim təşəbbüsümüzlə həyata keçirilən regional və qlobal layihələr uzaqgörən və düşünülmüş siyasətin, güclü siyasi iradənin nəticəsində mümkün olub: "Ümummilli Liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" çoxlarına əfsanə kimi görünsə də, uğurla reallaşdırıldı. Bu tarixi sənədin bəhrəsi kimi Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri açıldı. Təbii ki, bu uzaqgörən siyasət davam etdirildi. Möhtərəm Prezidentimiz İlham Əliyevin siyasi iradəsi nəticəsində 2014-cü ildə XXI əsrin layihəsi adlandırılan "Cənub Qaz Dəhlizi"nin təməli qoyuldu, bu günlərdə isə bu meqalayihənin təntənəli sürətdə açılış mərasimi keçirildi. "Cənub Qaz Dəhlizi"nin əsas seqmenti olan TANAP-ın istifadəyə verilməsi isə bu möhtəşəm uğurların davamıdır."

"İki sahil" qəzetinin baş redaktoru onu da vurğulayıb ki, bu gün Azərbaycan və Türkiyənin birgə səyləri regionda inkişafa, sülh və təhlükəsizliyə mühüm töhfələr verir: "TANAP-ın istifadəyə verilməsi Azərbaycan-Türkiyə əməkdaşlığının növbəti zəfəridir. TANAP-ın istifadəyə verilməsi mərasimində çıxış edən Möhtərəm Prezidentimiz İlham Əliyev bildirib ki, bu gün bu tarixi gündə də biz birlikdəyik. "Bu, onu göstərir ki, bizim təşəbbüsümüzlə irəli sürülən istənilən layihə həyatda öz əksini tapır. Çünki bunun arxasında düşünülmüş siyasət, güclü iradə və bizim qardaşlığımız dayanır" deyən dövlətimizin başçısı dünyaya mühüm mesajlar verib. Sözsüz ki, bu, bir daha onu göstərir ki, Azərbaycan və Türkiyə dost, qardaş ölkə olmaqla yanaşı, strateji müttəfiqdirlər və bütün məsələlərdə, bütün sferalarda bir-birilərini dəstəkləyirlər. Bu mənada, Azərbaycan və Türkiyə XXI əsrin enerji xəritəsini birlikdə cızır."

## Bəhruz Quliyev: "TANAP həm Azərbaycana, həm də Türkiyəyə dəyərli töhfələr verəcək"



"TANAP Azərbaycanın Avropanın Enerji bazarlarına inteqrasiyası, eləcə də təhlükəsiz tranzit dövlət kimi öz mövqeyini möhkəmləndirməsi üçün ən böyük imkandır. Ölkə səviyyəsində isə TANAP Azərbaycana öz enerji resursları sənayesini qlobal standartlar səviyyəsində inkişaf etdirmək imkanı bəxş edəcək". Bu fikirləri SİA-ya açıqlamasında siyasi-ekspert Bəhruz Quliyev deyib.

O bildirib ki, Avropa məkanı üçün yeganə alternativ enerji təminat mənbəyi olan Cənub Qaz Dəhlizi Avropanın Azərbaycanın təhlükəsizliyi üçün marağının artmasına səbəb olacaq: "Bildiyiniz kimi "Cənub Qaz Dəhlizi" layihəsi vasitəsilə Azərbaycan qazı 7 ölkə - Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya və İtaliyadan keçən boru kəmərləri ilə Avropaya çatdırılacaq. Bu da o deməkdir ki, burada iştirak edən hər bir ölkə Azərbaycanın təhlükəsizliyində maraqlı olacaq. Bununla da deyə bilərik ki, Avropanın enerji təminatı Azərbaycanın təhlükəsizliyinin təminatından asılı olacaq".

Ekspert qeyd edib ki, TANAP boru kəməri həm Azərbaycana, həm də Türkiyəyə dəyərli töhfələr verəcək: "Azərbaycan TANAP boru kəməri vasitəsi ilə öz qazını birbaşa Avropa bazarlarına daşıyaraq, Avropa enerji təhlükəsizliyi baxımından, strateji mövqeyə sahib olacaq. Boru kəməri, eyni zamanda Türkiyənin artan enerji tələbatını qarşılayacaq və qardaş ölkənin enerji mərkəzi olma ambisiyasına imkan yaradacaq".

Layihənin həyata keçirilməsinə Azərbaycan-Türkiyə arasında qardaşlıq münasibətlərinin önəmini vurğulayan B.Quliyev söyləyib ki, iki ölkə arasında olan səmimi, dost, strateji tərəfdaşlıq əlaqələri TANAP-ın uğurla reallaşmasında mühüm əhəmiyyətə malik oldu.

TANAP-ın Cənub Qaz Dəhlizinin reallaşmasında qabaqcıl layihə olduğunu deyən ekspert vurğulayıb ki, mütəxəssislər də bu layihəni Azərbaycanın ən mühüm enerji layihəsi hesab edir: "Artıq Azərbaycan dünyada ən mühüm layihələrin təşəbbüskarı kimi çıxış edir. Maliyyə tutumundan asılı olmayaraq Azərbaycan dünya əhəmiyyətli layihələr həyata keçirməklə həm iqtisadi gücünü göstərir, həm də etibarlı tərəfdaş olduğunu sübut etmiş olur".

B.Quliyev əlavə edib ki, sözügedən layihənin reallaşmasının ən önəmli məqamı onun sülhə və rifaha xidmət etməsidir: "Cənub Qaz Dəhlizi layihəsinin reallaşması, ilk növbədə, ölkələrimizin və bölgə xalqlarının rifahına xidmət edəcək".

## Mənəvi Dəyərlərin Təbliği Fondu Ramazan bayramı münasibətilə şəhid ailələrinə yardım edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 10 oktyabr tarixli Fərmanı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində yaradılmış Mənəvi Dəyərlərin Təbliği Fondu Ramazan bayramı münasibətilə Masallı, Lənkəran, Şamaxı, Qobustan, Salyan, Şəki, Quba, Yevlax, Zaqatala və digər rayonlarda yaşayan ümumilikdə 66 şəhid ailəsinə ərzaq yardımı edib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, bu məqsədlə keçirilmiş görüşlərdə həmin kateqoriyadan olan insanların dövlət tərəfindən hərtərəfli qayğı ilə əhatə olunduğu vurğulanıb. Bildirilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas istiqamətlərindən biri də məhz şəhid ailələrinin, müharibə veteranları və əlillərinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həll edilməsi və onlara hər cür qayğının göstərilməsidir. Şəhid ailələrinin üzvləri daim dövlətin diqqət mərkəzində olduqlarını və göstərilən qayğıya görə təşəkkürlərini bildiriblər.

## Alman professor ADU-da jurnalistlərlə görüşüb

İyunun 14-də Azərbaycan Dillər Universitetinin (ADU) Germanistika İnstitutunun fəaliyyəti ilə bağlı mətbuat konfransı keçirilib. Ölkənin bir sıra nüfuzlu kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdiyi görüşdə Germanistika İnstitutunun rəhbəri, Osvald fon Volkenştayn Cəmiyyətinin prezidenti, Almaniyanın Vürtsburq Universitetinin professoru Ziqlinde Hartman bir sıra vacib məqamlara toxunub.

Z.Hartman Azərbaycana gəldiyi ilk dönəmləri xatırlayaraq ölkənin tarix və müasirliyi özündə birləşdirməsinə vurğun olduğunu bildirib. Azərbaycan Dillər Universiteti ilə əməkdaşlığı haqqında danışan Z.Hartman ADU-nun rektoru, akademik Kamal Abdulla ilə birgə hər iki ölkənin ədəbiyyatı və mədəniyyəti üçün əhəmiyyətli layihələr həyata keçirdiklərini söyləyib.

Professor Z.Hartman alman mədəniyyətinin nadir incilərindən biri "Nibelunqlar haqqında nəğmə"nin "Kitabi-Dədə Qorqud" dastanı ilə müqayisəli şəkildə öyrənilməsi üzrə birgə layihələrdən və gələcək tədqiqat işlərindən danışıb. Bundan əlavə, o, hazırda üzərində işlədiyi bir çox layihələrdən bəhs edib.

## Ulu Öndərə sevgi və ehtiram tükənməzdir

*YAP Gəncə şəhər təşkilatında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilmiş silsilə tədbirlərin mükafatlandırma mərasimi keçirilib*



***Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatı Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr etdiyi silsilə tədbirlərin mükafatlandırma mərasimini keçirib.***

Öncə, Azərbaycan Respublikası Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbiri giriş sözü ilə YAP Gəncə şəhər təşkilatının sədri, millət vəkili Naqif Həmzəyev açaraq, dahi şəxsiyyət Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə bağlı hər il, ənənəvi olaraq, keçirilən tədbirlərin əhəmiyyətindən danışıb. Bildirib ki, silsilə tədbirlərin keçirilməsində əsas məqsəd Ümummilli Liderin dövlətçilik siyasəti, Onun zəngin irsinin tədqiqi və təbliği, gənclərin müvafiq biliklərinin zənginləşdirilməsi, ölkəmizin dövlət quruculuğu prosesində Ulu Öndərin xidmətlərinin gənc nəslə çatdırılmasından ibarətdir. Tədbirlərin yüksək əhval-ruhiyyədə keçirilməsi dahi şəxsiyyətə sevgi və ehtiramın böyüklüyündən qaynaqlandığını qeyd edən Naqif Həmzəyev, son 15 ildə Ulu Öndər Heydər Əliyev siyasətinin Prezident Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin Azərbaycanın daha möhtəşəm uğurlara imza atmasını şərtləndirdiyini diqqətə çatdırıb.

Sonra Ümummilli Lider Heydər Əliyevin doğum günü münasibəti ilə keçirilən silsilə tədbirlər çərçivəsində geniş yer alan "Heydər Əliyev irsini öyrənirik" adlı bilik yarışı, futzal, şahmat və stolüstü tennis turnirləri qalibləri mükafatlandırılıb. Azərbaycan Dövlət Aqrar Universiteti, Gəncə Dövlət Universiteti, Azərbaycan Texnologiya Universiteti, Gəncə Musiqi Kolleci, Gəncə Dövlət Regional Kolleci və Gəncə Tibb Kolleci tələbələrinin iştirak etdiyi yarışlarda I və II yerləri bölüşdürən komandalar Fəxri Fərman və qiymətli hədiyyələrlə təltif ediliblər. Tədbirdə, həmçinin, partiya fəalları və yarışların hakimləri də mükafatlandırılıblar. Bildirilib ki, bütün yarışlarda ali və orta ixtisas təhsil müəssisələrinin rəhbərləri, fəalları, tələbə-gənclər dahi şəxsiyyət Heydər Əliyev ənənələrinə sonsuz sədaqət, məhəbbət, yüksək vətənpərvərlik, hərtərəfli bilik, intellekt və bacarıq nümayiş etdiriblər.

YAP Gəncə şəhər təşkilatı qadınlar şurasının sədri, millət vəkili Pərvin Kərimzadə, şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Müşfiq Cəfərov, "Kapital Bank" ASC-nin Gəncə filialının müdiri Vüqar Paşayev çıxış edərək, qalib adını qazanan gənclərə uğurlar arzu ediblər.

***Rövşən NURƏDDİNOĞLU***

# MÜASİR AZƏRBAYCANIN QURUCUSU, BÖYÜK TARİXİ ŞƏXSİYYƏT

## *Ulu Öndərimizin xilaskarlıq missiyası zəngin idarəçilik təcrübəsinə, fenomenal şəxsi keyfiyyətlərə əsaslanır*

***Azərbaycanın çoxəsirlik dövlətçilik tarixində özünün müstəsna əhəmiyyəti, xalqımızın həm bugünkü, həm də gələcək taleyinin müəyyənləşdirilməsi nöqteyi-nəzərdən xalqımızın Ümummilli Lideri Heydər Əliyev epoxası bənzərsizdir. Taleyüklü hadisələrlə yaddaşlarda həkk olunan, Vətənimizin milli intibahı kimi xarakterizə olunan, şanlı istiqlal tariximizə qızıl hərflərlə yazılan bu dövr Ulu Öndərimiz, dünya səviyyəli dövlət başçısı və ictimai-siyasi xadim Heydər Əliyevin adı və fəaliyyəti, onun fenomenal şəxsiyyəti ilə bilavasitə bağlıdır.***



*Loğman ZÜLFÜQARLI, "Bakı İnşaat Sənaye" ASC-nin təsisçisi*



Sirr deyil ki, haqqında danışdığımız bu dövr Azərbaycanın çağdaş tarixinin bütöv bir salnaməsini təşkil edir və onun hər bir səhifəsi, hər bir sətri Ümummilli Liderimiz Heydər Əliyevin qüdrətli əlləri ilə yazılıb. Ulu Öndərimiz müasir Azərbaycan dövlətinin qurucusu və banisidir. Bu gün müstəqil siyasət həyata keçirən, dünya birliyində öz siyasi və iqtisadi çəkisinə görə önəmli rol oynayan Azərbaycan dövləti Heydər Əliyevin şah əsəri, xalqımıza yadigarıdır.

Dövlət o vaxt güclü və yenilməz olur, qarşısına çıxan maneələri dəf edə bilir ki, onun rəhbəri ilə xalqı arasında sarsılmaz vəhdət, birlik mövcud olsun. Məhz bu birlik və həmrəylik tarixin müxtəlif dönəmlərində ölkəmizin taleyində əvəzsiz rol oynayıb, xalqımızı başının üstünü almış bütün bəlalardan hifz edib qoruyub. Fenomenal biliyə, sarsılmaz iradəyə və milli ruha malik olan Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ən ağır günlərdə öz xalqının iradəsinə, təkidli xahişlərinə cavab olaraq 1993-cü ildə ölkə rəhbərliyinə qayıtmaqla respublikamızın dərin ictimai-siyasi və iqtisadi böhrandan çıxarılmasına, vətəndaş müharibəsinin qarşısının alınmasına, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunmasına və möhkəmləndirilməsinə, dövlətimizin beynəlxalq aləmdə uğurlar qazanmasına nail olmuşdur. Bu, sözün əsl mənasında, "ömrümün qalan hissəsini də xalqıma qurban verirəm", - deyib, meydana atılan böyük ürəkli Vətən oğlunun öz xalqı, öz Vətəni qarşısında misilsiz fədakarlığı idi.

İyunun 15-i Azərbaycanın müasir tarixinin ən mühüm günlərindən biridir. 25 il bundan öncə yaşadığımız həmin tarixi anlarda Ulu Öndərimiz deyirdi: "Belə bir yüksək və məsuliyyətli vəzifəni öz üzərimə götürərkən, birinci növbədə, Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram". Tarix özü sübut etdi ki, dünya şöhrətli dövlət xadimi və ustad siyasətçi Heydər Əliyevin güvəndiyi, arxalandığı bu yenilməz qüvvə qarşıya çıxan neçə-neçə qorxunc təhlükəni sovuşdurmağa, keçilməz maneələri belə dəf etməyə, həqiqətən də, qadirdir.

Məhz xalqın öz Dahi Lideri ilə birliyi, həmrəyliyi sayəsində müstəqilliyimiz əbədi prosesə çevrildi və ölkəmiz davamlı inkişaf magistralına qədəm qoydu.

Heydər Əliyev istər Azərbaycana birinci dəfə rəhbərlik etdiyi 1970-80-ci illərdə, istər Sovetlər İttifaqı rəhbərliyinə irəli çəkildiyi, istərsə də müstəqil Azərbaycan dövlətinin Prezidenti olduğu illərin hər anında öz doğma xalqının taleyini şəxsi taleyi hesab etmiş, xalqın qəlbində həmişə əvəzolunmaz lider kimi uca zirvədə dayanmışdır.

Ümummilli Liderimiz Heydər Əliyevin 1992-2003-cü illəri əhatə etdiyi on illik Prezidentliyi dövrü müstəqillik tariximizə qlobal iqtisadi islahatlar, abadlıq və quruculuq işlərinin geniş vüsət alması, daxili və xarici siyasətdə qazanılan mühüm nəticələrlə də məşayiət olunub. İstiqlalımızın bərpasının ilk illərində xalqımızın bu böyük oğlunun hakimiyyətdə olmaması üzündən dərin siyasi və iqtisadi böhran içərisində çabalayan Azərbaycan qısa müddətdə ayağa durmağa nail oldu. MDB məkanında, ilk dəfə olaraq, məhz Azərbaycanda torpaq islahatı əzmlə həyata keçirildi, torpaq onun əsl sahibinə qaytarıldı, ölkənin sənaye və kənd təsərrüfatı məhsulları istehsalında özəl sektorun payı ilbəil artırıldı. Özəl sektorun, sahibkarlığın inkişafına xüsusi diqqət və qayğı ilə yanaşan Ulu Öndər milli iqtisadiyyatımızın artımında bunun əhəmiyyətli rolunu gözəl bilirdi. Məhz bunun sayəsində artıq 1996-97-ci illərdən başlayaraq ölkəmiz nəinki böhranın fəsadlarını aradan götürməyə, hətta sürətli inkişaf mərhələsinə qədəm qoymağa müvəffəq oldu. Bazar iqtisadiyyatına keçidlə bağlı çox böyük və mühüm tədbirlər həyata keçirildi, bu da sahibkarlığın inkişafına güclü təkan verdi.

Bəzi statistik rəqəmlərə müraciət etmək kifayətdir ki, Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda həyata keçirilən geniş və dərin islahatların əhəmiyyəti aydın olsun. Belə ki, 2003-cü ildə 1998-ci illə müqayisədə ümumi daxili məhsul istehsalı 21,2 faiz, əsas kapitala yönəldilən investisiyalar 12,4 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 18,2 faiz, nəqliyyat sektorunda yükdaşımalar 33,5 faiz, pərakəndə əmtəə dövriyyəsi 86,9 faiz, xarici ticarət dövriyyəsi 2,6 dəfə yüksəldi. Yalnız 1998-2002-ci illər ərzində əhalinin nominal pul gəliri 46,8 faiz, adambaşına düşən pul gəliri 42,4 faiz, orta əmək haqqı 87,2 faiz artdı. Həmin dövrdə istehlak qiymətlərinin indeksi 97,2 faizi ötdü.

Heydər Əliyev qısa müddət ərzində Azərbaycanı öz vətəndaşları üçün sakitliyin, vətəndaş həmrəyliyinin, əmin-amanlığın hökm sürdüyü, demokratik təsisatların fəaliyyəti üçün geniş şərait yaradıldığı bir ölkəyə, xarici və daxili investorlar üçün isə əlverişli imkanlar açan, səmərəli əməkdaşlığa hazır olan bir tərəfdaşa çevirmişdir.

Azərbaycanda müstəqil dövlət təsisatlarının yaradılması, beynəlxalq normalara əsaslanan demokratik, hüquqi dövlət quruculuğunun əzmlə həyata keçirilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, milli təhlükəsizliyin təminatı və yeni iqtisadi kursun müəyyənləşdirilməsi şəxsən Heydər Əliyevin xalqı qarşısındakı əvəzsiz xidmətləridir. Heydər Əliyev nəinki müstəqilliyimizi qoruyub saxladı, onu əbədi və dönməz etdi. Zamanın bu dahi şəxsiyyətə, onun dərin zəkasına, polad iradəsinə, zəngin təcrübəsinə və hədsiz vətən sevgisinə etibar etdiyi tarixi missiyanı layiqincə yerinə yetirməyə müvəffəq oldu. Ulu Öndərimizin müstəqil Azərbaycanın prezidenti kimi on illik fəaliyyəti özünün əzəmətli ifadəsini öncə ölkəmizin və xalqımızın nicata qovuşmasında, geniş mənada isə müasir dövlət quruculuğu siyasətinin həyatımızın bütün sahə və istiqamətlərini əhatə etməsində, heç kimdən və heç bir ölkədən asılı olmayan, müstəqil siyasət yürüdən qüdrətli Azərbaycanın təşəkkülündə, zamanın yeni çağırışlarının müvəffəqiyyətlə həll edilməsində tapır.

Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı öz strateji seçimini və inkişaf yolunu - insan hüquq və azadlıqlarının ali dəyər hesab edildiyi demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunu seçdi və bu məqsədə nail olunması üçün qısa müddətdə dövlət və cəmiyyət həyatının bütün sahələrində köklü islahatlar aparıldı. Ulu Öndərimizin banisi olduğu, Onun bilavasitə rəhbərliyi ilə ərsəyə gətirilmiş və ümumxalq səsverməsi yolu ilə 1995-ci il noyabrın 12-də qəbul edilmiş ilk milli Konstitusiyamız, şübhəsiz ki, bütün bu islahatların yönünü müəyyənləşdirmişdir.

Ulu Öndərimizin siyasi kursunda Ermənistanın ölkəmizə və xalqımıza qarşı təcavüzünün qarşısının alınması və ərazi bütövlüyümüzün bərpası, ermənilərin terror və soyqırım siyasəti yürütdüyünün bütün dünyaya çatdırılması son dərəcə mühüm yer tuturdu. Cəbhədə atəşkəsin əldə olunması Azərbaycanda milli ordu quruculuğu prosesini sürətləndirməyə, ölkəmizin iqtisadi və hərbi potensialını gücləndirməyə imkan verdi. Heydər Əliyevin Azərbaycanda ali hakimiyyətə qayıdışına qədər bunlar yox dərəcəsində idi. Ümummilli Liderimiz iqtisadiyyatımızı inkişaf yoluna salmaqla və hərbi-müdafiə, maddi-texniki bazanı möhkəmləndirməklə xalqımızın inamını və döyüş ruhunu özünə qaytardı. O, dünyanın aparıcı dövlətləri ilə münasibətləri tarazlaşdırmağa nail oldu. Ermənistanın Azərbaycana təcavüz etdiyini, soyqırım və terror siyasəti yürütdüyünü dünyaya çatdırmaq üçün xarici ölkələrə, o cümlədən, BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan dövlətlərə səfərləri zamanı əlində xəritə yorulmadan diplomatik bacarığını işə saldı. Ən mötəbər beynəlxalq tribunalardan Ermənistanın ifşası üçün məharətlə istifadə etdi. Bununla da, Ermənistanın təcavüzkar dövlət olduğunu ATƏT-in Lissabon sammitində, Avropa Şurasında və digər beynəlxalq təşkilatlar, eləcə də, əksər dünya dövlətləri tərəfindən etiraf və qəbul edilməsinə nail oldu.

Təsadüfi deyil ki, müasirləri, dünyanın aparıcı dövlətlərinin başçıları və görkəmli ictimai-siyasi xadimləri Heydər Əliyevi zəmanəmizin canlı əfsanəsi kimi qəbul edib ehtiram bəsləyiblər.

Bu gün ölkəmizin hər bir guşəsində, iqtisadi və siyasi həyatımızın hər bir sahəsində sürətli inkişaf və tərəqqi müşahidə olunur. Respublikamızda yaşayan hər bir vətənpərvər insan Azərbaycan vətəndaşı olduğu üçün fəxr edir. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş ölkəmizin milli inkişaf strategiyası Prezidentimiz İlham Əliyevin idarəçilik məharəti sayəsində xalqımızın davamlı tərəqqidə olan bugününü və firavan gələcəyini təmin edir. Ölkəmizin hazırda nail olduğu bütün uğurların əsasları və gələcək inkişaf perspektivləri birbaşa Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.

# "Zəngi" Liseyində son zəng mərasimi

*İyunun 14-də Bakının Nizami rayonundakı "Zəngi" Liseyində son zəng günü ilə əlaqədar bayram tədbiri keçirildi*

***Məktəbin pedaqoji kollektivinin, valideynlərin və şagirdlərin iştirak etdikləri mərasimdə "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə məzunları təbrik etdi, onlara ali məktəblərə qəbul imtahanlarında uğurlar arzuladı.***





Azərbaycanda təhsilin inkişafı ilə bağlı həyata keçirilən dövlət siyasətindən danışan V.Rəhimzadə bildirdi ki, bu gün ölkəmizdə həyatın bütün sahələri kimi, təhsilin inkişafına da xüsusi önəm verilir. Yeni-yeni məktəb binaları tikilir, xaricdə təhsil alan azərbaycanlı tələbələrin, beynəlxalq olimpiadalarda qalib adını qazanan şagirdlərimizin sayı ildən-ilə artır. Təbii ki, bu uğurların qazanılması Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğıdan irəli gəlir. "Zəngi" Liseyi də respublikamızın qabaqcıl təhsil ocaqlarından biridir. Özünəməxsus fəaliyyəti ilə seçilən liseyin nailiyyətləri ildən-ildən daha da artır.

Tədbirdə Nizami rayon icra hakimiyyətinin nümayəndəsi Tariyel Hüseynov, valideynlər, liseyin müəllimləri, ötən illərdə yüksək nəticələr əldə etmiş məzunlar və digər çıxış edənlər "Zəngi" Liseyinin qazandığı uğurlardan danışdılar, onbirincilərə qəbul imtahanlarının ikinci mərhələsində müvəffəqiyyətlər arzuladılar.

Çıxış edənlər bildirdilər ki, "Zəngi" Liseyi bu tədris ilində də yüksək nailiyyətlər qazanıb. Builki qəbul imtahanlarının birinci mərhələsində liseyin 24 şagirdi 600, 28 nəfəri isə 500 baldan artıq nəticə göstəriblər. 6 nəfər şagird yüksək balla Türkiyənin, 1 nəfər isə İngiltərənin ali məktəblərinə qəbul olunub. Ümumilikdə, bu il liseyi 130 məzun bitirir. İl ərzində liseyin bir şagirdi Respublika Fənn Olimpiyadasının, iki müəllimi isə qrant layihələrin qalibi olublar.



"Zəngi" Liseyinin direktoru Bayram Heydərov rəhbərlik etdiyi təhsil ocağının fəaliyyətindən söz açdı. Cari tədris ilində fərqlənən şagirdləri, xüsusilə, təbrik edən liseyin direktoru bu il məzun olan 130 şagirdin hamısının ali məktəblərə qəbul imtahanlarında yüksək nəticələr göstərəcəyinə ümidvar olduğunu bildirdi.

Mərasim şagirdlərin ifasında maraqlı bayram proqramı ilə başa çatdı.

***Şəfiqə Dadaşova,***
***"İki sahil"***



# "Heydər Əliyev və tarixi qayıdış"

## *Suraxanı rayonunda 15 İyun - Milli Qurtuluş Günü münasibəti ilə bu mövzuda konfrans keçirilib*



***Suraxanı rayonunda 15 İyun Milli Qurtuluş Günü münasibəti ilə silsilə tədbirlər keçirilir. Növbəti tədbir - "Heydər Əliyev və tarixi qayıdış" mövzusunda konfrans Suraxanı rayonu Heydər Əliyev Mərkəzi, Milli Məclisin Hüquq Siyasəti və Dövlət Quruculuğu Komitəsi, Suraxanı rayon icra hakimiyyəti və YAP Suraxanı rayon təşkilatı tərəfindən təşkil olunub. Tədbir iştirakçıları əvvəlcə rayondakı Ümummilli Liderin Heydər Əliyev Parkında ucaldılan Heydər Əliyev abidəsini ziyarət edib, önününə gül dəstələri düzüblər.***

Daha sonra tədbir iştirakçıları Suraxanı rayonu Heydər Əliyev mərkəzi ilə, Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş poçt markaları və kitab sərgiləri ilə tanış olub, mərkəzin sifarişi ilə hazırlanmış "Xilaskar" filminə baxıblar.

Dövlət himni səsləndirildikdən sonra konfransı giriş sözü ilə açan Suraxanı rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov qeyd edib ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1993-cü il iyunun 15-də Ali Sovetin sədri seçilməsi xalqımızın qurtuluş və qəhrəmanlıq tarixidir: "Xalqın arzu və təkidli tələbi ilə 1993-cü ildə ikinci dəfə siyasi hakimiyyətə gələn Ulu Öndər əldə etdiyi müstəqilliyini itirmək təhlükəsi qarşısında olan Azərbaycanı düşdüyü ağır vəziyyətdən, qardaş qırğınından qurtarmaq üçün qısa zamanda təxirəsalınmaz və qətiyyətli tədbirlər gördü. Ulu Öndər dövlət idarəçiliyi sahəsində qazandığı zəngin təcrübə ilə fitri istedadını birləşdirərək, ölkədə möhkəm və dönməz sabitlik yaratdı, qeyri-qanuni silahlı dəstələri tərksilah etdi, xarici müdaxilə cəhdinin qarşısını aldı, atəşkəsə nail oldu".

İ.Abbasov onu da bildirdi ki, Ümummilli Lider Heydər Əliyevin siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Möhtərəm Prezidentimiz Cənab İlham Əliyev Ulu Öndərin siyasətini yaradıcı şəkildə həyata keçirərək, sürətlə dəyişən müasir dünyada Azərbaycan dövlətinin və xalqının maraqlarını uğurla müdafiə edir, ölkənin ərazi bütövlüyünün bərpası və təhlükəsizliyinin təmin olunması istiqamətində çox mühüm və taleyüklü addımlar atır.

Konfransda çıxış edən Milli Məclisin Hüquq Siyasəti və Dövlət Quruculuğu Komitəsinin sədri Əli Hüseynli qeyd edib ki, müasir Azərbaycanda dövlət quruculuğu ilə yanaşı, ümumilikdə, dövlətçiliyin inkişafı Ulu Öndərin adı ilə bağlıdır. 1995-ci ilin noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş konstitusiyamızın müəllifi, məhz Ümummilli Lider Heydər Əliyevdir. Azərbaycan Respublikasının Konstitusiyasında yüz illər boyu bəşəriyyətin əldə etdiyi mütərəqqi dəyərlər fundamental hüquq və azadlıqları öz əksini tapmışdır.

Ə.Hüseynli bildirib ki, Ulu Öndərin ən böyük nailiyyət hesab etdiyi hadisə Azərbaycanın müstəqilliyi, ən çox vurğuladığı və diqqət verdiyi vəzifə isə müstəqilliyin dönməzliyinin təmin edilməsi idi. Azərbaycanın öz maraqlarına uyğun işlənib-hazırlanmış müstəqil siyasi kursu da Heydər Əliyevin əsəridir. Bu gün də həmin kurs böyük uğurla davam etdirilir.

Konfransda çıxış edən Milli Məclisin deputatları Rafail Cəbrayılov, Fəzail Ağamalı, Sevinc Fətəliyeva, Ağacan Abiyev, Yeni Azərbaycan Partiyası Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov qeyd ediblər ki, Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin iyununda Bakıya gəlişi Azərbaycanı qurtuluşa, xilasa və müstəqil dövlətçiliyə aparan yolun başlanğıcı kimi tarixə düşmüşdür. Bu Dahi İnsanın adı Azərbaycan xalqının rəmzinə, əməlləri isə hünər timsalına çevrilib. Həyat və fəaliyyəti doğma xalqına və torpağa məhəbbət, sədaqət meyarı olub.

Sonda Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin zəngin irsinin öyrənilməsi məqsədi ilə rayonun tam orta məktəblərində təhsil alan 9-11-ci sinif şagirdlərinə "Heydər Əliyev və müasir Azərbaycan tarixi" mövzusunda keçirilən açıq dərslərin tədrisində fərqlənən müəllimlər, rayonun ictimai həyatında fərqlənən bir qrup şəxs rayon icra hakimiyyəti başçısı tərəfindən Fəxri Fərman, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibəti ilə məktəblilər arasında keçirilmiş inşa yazı və rəsm müsabiqəsində fərqlənən şagirdlər isə Təşəkkürnamə ilə təltif olunublar.

**ZÜMRÜD BAYRAMOVA**



# YAP Binəqədi rayon təşkilatında "Sözün hikməti" adlı kitabın təqdimatı keçirilib

***Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının inzibati binasında təşkilatın baş təlimatçısı, Binəqədi Bələdiyyəsinin üzvü Kubra Əliyarlının sayca ikinci kitabı olan "Sözün hikməti" adlı kitabının təqdimat mərasimi keçirilib.***

Təqdimat mərasimini giriş sözü ilə açan YAP Binəqədi rayon təşkilatının sədri, kitabın ön söz müəllifi Ramiz Göyüşov Kubra Əliyarlının uğurlu ictimai-siyasi və yaradıcılıq fəaliyyətindən ətraflı danışıb. Müəllifin yaradıcılıq uğurlarını diqqətə çatdıraraq, bu uğurların davamlı olacağına inamını ifadə edib. Yaradıcılıq fəaliyyətinin istedad tələb etdiyini və bu xoşbəxtliyin isə hər kəsə nəsib olmadığını vurğulayaraq, müəllifə uğurlar arzulayıb.

Tədbirdə çıxış edən "Sözün hikməti" kitabının müəllifi Kubra Əliyarlı kitabın ərsəyə gəlməsi haqqında məlumat verib. Bildirib ki, bu kitab 300-dən artıq aforizmi əhatə edir. Aforizmlərin, hikmətli sözlərin insan həyatındakı ciddi maarifləndirici rolundan danışaraq, sözün nə qədər qiymətli və dəyərli bir xəzinə olduğunu xüsusi vurğulayıb. Müəllif yaradıcılıq fəaliyyətini bu və ya digər janrlarda bundan sonra da davam etdirəcəyini bildirib və göstərilən dəstəyə görə, tədbir iştirakçılarına təşəkkürünü çatdırıb.





YAP Binəqədi rayon təşkilatının şura üzvü, 284 nömrəli tam orta ümumtəhsil məktəbinin direktoru, fəlsəfə doktoru Nizami Novruzov kitabdakı çox böyük İlahi sevgidən bəhs edib. Gənc bir yazar Kubra Əliyarlının aforizmlərində İlahi sevgini və İlahi ədaləti bu qədər yüksək səviyyədə tərənnüm etdirməsinin təqdirəlayiq olduğunu söyləyib. Bu cür yaradıcı və istedadlı gənclərin bütün gənclərimizə örnək olduğunu diqqətə çatdırıb.

YAP Binəqədi rayon təşkilatının şura üzvü, 83 nömrəli məktəb-liseyin direktoru Nəbi Mahmudov çıxış edərək, gənclərin yaradıcılığa, ədəbiyyata maraqla yanaşmalarının və öz istedadları üzərində çalışaraq, onu daha da inkişaf etdirmələrinin vacibliyini bildirib. O, müəllifi təbrik edərək, ona yaradıcılıq uğurları arzu edib.

Binəqədi Bələdiyyəsinin sədri Sitarə Cabbarlı gənclərin uğurlarının digər yaradıcı gənclərə əsl stimul olduğunu və bu cür kitabların ərsəyə gəlməsinin böyük zəhmət hesabına başa gəldiyini diqqətə çatdırıb. K.Əliyarlını ictimai-siyasi həyatda yaxından tanıdığını, eyni zamanda, onun yaradıcı bir gənc olduğunu vurğulayıb.

Şair Adil Həmidov müəllifi bir neçə şeir parçası səsləndirməklə təbrik edərək, ona yaradıcılıq uğurları arzulayıb. O, müəllifi öz üzərində daim çalışan, savadlı, bilikli bir insan kimi tanıdığını və fəaliyyət göstərdiyi digər sahələrdə olduğu kimi, yaradıcılıq sahəsində də daha böyük zirvələri fəth edəcəyinə əminliyini bildirib.

Biləcəri Bələdiyyəsinin sədr müavini Samirə Həsənova da çıxışında müəllifə ən xoş arzularını bildirərək, onun yeni kitabının oxucular tərəfindən maraqla qarşılanacağına ümidvar olduğunu qeyd edib.

Tədbirdən sonra xatirə şəkli çəkdirilib. Kitabların imzalanması mərasimi keçirilib.

**ZÜMRÜD**

# Bayram günləri ərzində banklar gücləndirilmiş iş rejimində çalışacaq

***Ramazan bayramı və Milli Qurtuluş Günü ilə əlaqədar olaraq cari il iyunun 15-19-da Maliyyə Bazarlarına Nəzarət Palatasının (MBNP) tövsiyəsi ilə banklar gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək.***




MBNP-nin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bayram günləri ərzində ölkə vətəndaşları və qonaqların valyuta mübadiləsi xidmətlərindən rahat faydalana bilmələri üçün 22 bankın 57 filial və şöbəsi müştərilərə xidmət göstərəcək. Bankların Bakı şəhərində yerləşən 8 filial və şöbəsi isə 24 saat çalışacaq. Palatanın əməkdaşlarından ibarət olan xüsusi monitorinq qrupu bayram günlərində, həmçinin fəaliyyət göstərərək yarana biləcək hər hansı problemlə əlaqədar ölkə vətəndaşlarının və qonaqların müraciətlərini qəbul edəcək. Qeyri-iş günləri ərzində valyuta mübadiləsi əməliyyatlarını gücləndirilmiş iş rejimində həyata keçirəcək bankların filial və şöbələrinin siyahısı palatanın rəsmi internet səhifəsində yerləşdirilib.



*Mətbuatdan məlum olduğu kimi, "Soros" fondu Azərbaycanda fəaliyyətlərini dayandırmış bir sıra qəzetlərə və onların baş redaktorlarına maliyyə yardımları ayırıb. Ayrılan vəsait hesabına "Media klubu" adlı qondarma bir qurum yaradılıb. Sual yaranır: xarici təşkilatlardan maliyyə yardımı hesabına çap məlumatlarını istehsal etmək qanuna zidd deyilmi? Söhbət etdiyimiz müsahiblərimiz xarici maliyyə yardımları hesabına qəzet təsis etmək və qurum yaratmağın yolverilməz olduğunu bildirdilər.*

# "Qanunazidd hallara qarşı ciddi ölçü götürməlidirlər"

## "Soros" fondunun kimə və nəyə xidmət etdiyi hər kəsə yaxşı məlumdur"

***Jurnalistlərin Həmkarlar İttifaqının sədri, Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli:***



- "Media klubu" yaradanlar ilk açıqlamalarını tənqidlə başlayıblar. Azərbaycanın peşəkar media qurumlarını, media mühitini, media təmsilçilərini tənqid və təhqirlə başlayıblar fəaliyyətə. 20-25 il öncənin ovqatı ilə yaşayırlar, hər şeyi qara rəngdə görürlər, bütün inkişafı kölgəyə almağa çalışırlar. Əgər normal tənqid kursu tutsalar, bəlkə də anlaşılardılar. Məsələ ondadır ki, tənqid etmək xatirinə mövcud olmayan faktlardan istifadə edirlər. Maraqlıdır ki, Azərbaycan mediası və hökuməti adına səsləndirdikləri səhvləri, yanlışları zamanında özləri ediblər. Azərbaycan mediası və hökuməti adına yazmaq istədikləri səhvlər və yanlışlar onların özlərinə aiddir. Məsələn, Azərbaycan mediasında korrupsiya halından danışırlar. Axı hamının bildiyi faktdır ki, bütün postsovet məkanında "Soros" fondu, məhz Azərbaycanda qrant yeyənlərin maxinasiyaları ilə bacarmayıb, öz strukturunu bağlamaq məcburiyyətində qaldı. Həmin vaxt bu strukturun rəhbərliyində olan Mehman Əliyev və Arif Əliyev ən biabırçı şəkildə media nümayəndələrinin ittihamlarına məruz qaldılar və deməyə söz tapmadılar. İndi bu şəxslər "Media klubu" yaradıblar, özlərinin yol verdikləri xətaları "Media klubu"n dili ilə Azərbaycanın adına yazırlar. Bu və digər onlarla fakt, deməyə əsas yaradır ki, bunların niyyəti xoş deyil. Ona görə də, qınanmalıdırlar. Mehman Əliyev gör kimlərlə "Media Klubu", media siyasəti qurur?! Açın Elmdar Əliyevin, Əvəz Zeynallının, Elnur Məhərrəmlinin, Azər Qaramanlının və bu qondarma təsisatda təmsil olunanların saytlarına baxın. Onların az qala hər bir yazısı cinayət məsuliyyəti doğuracaq həddədir. Fikirləşmirlərmi ki, buna Azərbaycan cəmiyyəti necə baxır?

***"Xalq Cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli:***



- Azərbaycanda ənənəvi olaraq mətbuatın inkişafına və mediadakı proseslərin xarici dairələrin əlində oyuncağa çevrilməsinə cəhd göstərən bir qrup şəxsin fəaliyyəti nəticəsində "Media klubu" ortaya çıxıb. Adını da çox düzgün qoyublar. Çünki bu klub formatından uzağa getməyəcək bir layihədir. Azərbaycanda özünə hörmət edən, ölkəmizin maraqlarını üstün tutan, mediadakı peşəkarlıq prinsiplərinə önəm verən peşəkar jurnalistlərin heç biri bu prosesə dəstək verməyiblər və verməyəcəklər. Vaxtilə eyni adamlar Azərbaycan Mətbuat Şurasının formalaşması prosesinə də mane olmağa çalışıblar. Həmin dövrdə mətbuatın uzaqgörən nümayəndələri və baş verən hadisələrin mahiyyətini dərk edən insanlar bu marginal qrupların mediada üstünlüyü ələ almasına imkan vermədilər. Mütəmadi olaraq, dedi-qodu xarakterli informasiyalarla Azərbaycan mətbuatında öz mövqelərini qoruyub saxlamağa cəhd göstərən və nə peşə prinsipinə, nə də milli maraqlara əməl etməyən insanlar ölkə mətbuatında söz sahibi ola bilməzlər. Məsələnin mahiyyəti, əslində, göz önündədir. Biz bu prosesləri yaşamışıq. Baş verən hadisələrin hər biri gözlərimiz önündən keçib. Bu insanların Azərbaycan mətbuatının adi toplantısında beynəlxalq təşkilatların məktublarını az qala özləri üçün konstitusiya müddəaları kimi oxuduqlarının şahidi olmuşuq. Bütövlükdə, bu adamların Azərbaycan mətbuatının milli maraqlara xidmət etməsinə necə manеçilik yaratmağa cəhd göstərməsinin şahidi olmuşuq. Xarici dairələrdən qrant hesabına aldıqları vəsaitlərlə ölkədə jurnalistikanın, konkret olaraq, media siyasətinin ayrı-ayrı xarici dairələrin əlində olmasına cəhd göstərdiyinin, bu istiqamətdə addımlar atdığının şahidi olmuşuq. Bu qara-qışqırıqçılıq, hay-küyçülük, aqressiya, bütövlükdə şantaj, təhdid yolu ilə ayaq üstdə media siyasətinə təsir göstərmək cəhdləri bizim gözümüzün önündə baş verib. Təəssüf ki, bu keçmişi yaşamışıq. Hesab etmirəm ki, bu adamların köhnə layihəsi uğur qazanacaq. Hərçənd, onlara bu istiqamətdə dəstək verən insanların da iflasa uğrayacağını düşünürəm. Hesab edirəm ki, mətbuatımız doğru bir yoldadır və konseptual əsaslarla özünün inkişaf yolunu seçib. Bu gün Azərbaycan mediası əvvəlkindən daha peşəkardır və milli maraqlarını müdafiə etmək iqtidarındadır. Media bu gün daha analitik təfəkkürə malik olan insanların apardığı informasiya siyasətinin təsiri altındadır.

***"Paralel" qəzetinin baş redaktoru Tapdıq Abbas:***



- "Soros" fondunun kimə və nəyə xidmət etdiyi hər kəsə yaxşı məlumdur. Bu fond, adətən, ayrı-ayrı ölkələrdə inqilab hazırlayıb, həyata keçirməklə məşhurlaşıb. O da məlumdur ki, bu fond artıq xeyli vaxtdır ki, Azərbaycanda fəaliyyətini dayandırıb. Belə olan halda, ölkədə fəaliyyətini dayandırmış mətbu orqanlarına və baş redaktorlara maliyyə yardımı ayırıb, onların fəaliyyətini bərpa etmək və "Media Klubu" kimi lazımsız qurum yaratmaq heç də fondun xoş məramından xəbər vermir. Fondun maliyyə yardımı ayırdığı media orqanlarının sırasına diqqət yetirdikdə, onların əksəriyyətinin Azərbaycanda yaranmış mövcud sağlam media mühitində yanlış mövqe tutmadıqları üçün iflas etdiklərini də bilirik. Buna görə də, xaricdən ayrılan maliyyə yardımı ilə ölkəmizdə fəaliyyətini bərpa etməyə hazırlaşan və xaricdən idarə olunan media orqanlarının ölkəmizdə fəaliyyət göstərməsi qüvvədə olan mövcud qanunlarımıza tam ziddir və müvafiq dövlət orqanları bu cür qanuna zidd hallara qarşı ciddi ölçü götürməlidirlər.

**GÜLYANƏ**



# Uşaqların hüquqlarının müdafiəsinə dair BMT sənədləri

***BMT Baş Məclisinin 3 dekabr 1986-cı il tarixli 41/85 saylı qətnaməsi ilə qəbul edilmiş Uşaqların, xüsusilə, onlara milli və beynəlxalq səviyyədə tərbiyə verilərkən və övladlığa götürülərkən müdafiəsinə və əmin-amanlığına dair sosial və hüquqi prinsiplər haqqında Bəyannaməsi ilə 24 maddə şəklində prinsiplərin irəli sürülməsi kifayət qədər müsbət addım kimi qiymətləndirilməlidir. Bəyannamənin 1-ci maddəsində qeyd edilir ki, hər bir ailənin və uşağın əmin-amanlığına birinci dərəcəli diqqət yetirilməlidir. 2-ci maddədə isə göstərilir ki, uşağın əmin-amanlığı ailənin əmin-amanlığından asılıdır.***

Növbəti beynəlxalq sənəd kimi 5 may 1990-cı il BMT-də uşaqların mənafeyi naminə yüksək səviyyədə keçirilən Ümumdünya görüşündə qəbul olunmuş "Uşaqların salamatlığının, müdafiəsinin və inkişafının təmin edilməsi haqqında" Ümumdünya Bəyannaməsidir. AR Bəyannaməyə AR Milli Məclisinin 21 iyul 1993-cü il tarixli qərarı ilə qoşulmuşdur. Bəyannamənin 2-ci maddəsində birbaşa qeyd edilir ki, uşağın əmin-amanlığı ailənin əmin-amanlığından asılıdır. 7-ci maddənin tələblərinə görə, hökumətlər uşaqların qayğısına qalan milli xidmətlərin səmərəliliyini müəyyən etməli və müvafiq tədbirləri nəzərdən keçirməlidirlər.

N.Adilov yazır: "Bəyannamənin mühüm istiqamətlərindən biri də burada kifayət qədər problemlərin göstərilməsi və onların aradan qaldırılması istiqamətində addımların müəyyənləşdirilməsidir. Belə ki, Bəyannamənin "Problemlər" adlanan bölməsinin 4-7-ci maddələrində qeyd edilir ki, hər gün bütün dünyada çoxlu sayda uşaqlar onların böyüməsinə və inkişafına mane olan təhlükələrlə üzləşirlər. Müharibənin, zorakılığın, irqi ayrı-seçkiliyin, aparteidin, təcavüzün, xaricdən işğalın və ilhaqın qurbanı kimi, qaçqın və öz yerlərindən köçürülən, öz evlərini, ailəsini tərk etmək məcburiyyətində qalmış uşaq kimi; əlil kimi; yaxud da səhlənkarlığın, qəddarlığın və istismarın qurbanı kimi onlar saysız-hesabsız əzab-əziyyətlərə məruz qalırlar. Hər gün milyonlarla uşaq yoxsulluğun fəlakətli nəticəsindən və iqtisadi böhrandan-aclıqdan, evin yoxluğundan, epidemiyadan, savadsızlıqdan, ətraf mühitün pisləşməsindən əziyyət çəkirlər. Onlar xarici borcla bağlı problemlərin ağır nəticələrindən, habelə, inkişaf etməkdə olan dövlətlərdə, xüsusilə, daha az inkişaf etmiş dövlətlərdə sabit və daimi inkişafın olmamasının nəticələrindən əziyyət çəkirlər. Hər gün 40000 uşaq yarıac-yarıtox yaşamaqdan, xəstəliklərdən, o cümlədən, qazanılmış immun çatışmazlığı sindromundan (QİÇS), təmiz suyun olmamasından və sanitariya şəraitinin pis olmasından, habelə, narkomanlıqla bağlı problemlərin nəticələrindən həlak olur."

Bəyannamənin "Vəzifələr" adlanan 10-17-ci bəndlərində qeyd edilir ki, uşaqların sağlamlığının və qidasının yaxşılaşdırılması birinci dərəcəli vəzifəsidir. O, habelə, bu gün həll edilməsi mümkün olan məsələdir. Hər gün on minlərlə oğlan və qızın həyatı xilas edilə bilər, belə ki, onların ölüm səbəbləri tamamilə aradan qaldırıla bilər.

Nəhayət, qeyd edilən məsələləri xüsusi qeyd edərək, Bəyannamənin "Öhdəliklər" adlanan 18-20-ci maddələrində 10 bənddən ibarət öhdəlik müəyyən edilmişdir. Məsələn, Uşaq Hüquqları haqqında Konvensiyanın ratifikasiya edilməsinə və həyata keçirilməsinə köməklik; uşaqların sağlamlığının möhkəmləndirilməsi, doğuşdan əvvəl tibbi yardımın göstərilməsinin təmin edilməsi, körpə və uşaq ölümünün səviyyəsinin aşağı salınması; aclığın, yarıac-yantox yaşamanın qarşısının alınmasına yönəlmiş tədbirlər vasitəsi ilə uşaqlıq dövrünün ən münasib yüksəlişinin və inkişafının təmin edilməsi; qadının rolunun və vəziyyətinin möhkəmləndirilməsi; ailənin roluna hörmət bəslənilməsinə və uşaqlıq çağından gənclik çağına qədər uşaqların qida ilə təmin olunmasında və müalicəsində valideynlərin səylərinə kömək edilməsi; savadsızlığın səviyyəsini aşağı salan, mənşəyindən və cinsindən asılı olmayaraq, bütün uşaqlara təhsil almaq imkanları verən və bu uşaqları əmək fəaliyyətinə hazırlayan, bütün həyatı boyu onların təhsil almasına (məsələn, peşə hazırlığı yolu ilə) və əlverişli mədəni və sosial şəraitin köməyini hiss edərək uşaqların kamilliyə çatmasına imkan verən proqramların həyata keçirilməsi; xüsusən, ağır vəziyyətdə yaşayan milyonlarla uşaqların - aparteid və ya təcavüz qurbanlarının, yetimlərin və baxımsız uşaqların, əmək miqrantlarının uşaqlarının və amansız davranışın qurbanı olan əlverişsiz sosial şəraitdə yaşayan və istismara məruz qalan uşaqların ağır vəziyyətinin yüngülləşdirilməsi; uşaqları müharibə fəlakətindən qorumaq və hər yerdə uşaqların dinc və təhlükəsiz gələcəyini təmin etmək üçün gələcəkdə silahlı münaqişələrin qarşısını almaq üçün tədbirlər görülməsi; uşaqların daha da təhlükəsiz və ekoloji cəhətdən sağlam gələcəkdə yaşaması üçün ətraf mühitin qorunması üçün birgə tədbirlər həyata keçirilməsi; yoxsulluğa qarşı qlobal hücumun genişlənilməsi.

Bu sahədə mühüm beynəlxalq sənədlərdən biri də, BMT Baş Məclisinin 14 dekabr 1974-ci il tarixli qətnaməsi ilə qəbul edilmiş Qadın və uşaqların fövqəladə hallarda, silahlı münaqişələr dövründə müdafiəsi haqqında Bəyannamədir. 6 bənddən ibarət Bəyannamə bu sahədə uşaqların hüquqlarının müdafiəsində bir sıra mühüm müddəaları əks etdirir.

Müəllifin fikrincə, 1919-cu ildə yaradılan və 1946-cı ildən BMT-nin ilk ixtisaslaşdırılmış təsisatı kimi fəaliyyət göstərən BƏT bir sıra istiqamətlərdə geniş normayaradıcılıq fəaliyyəti ilə beynəlxalq normativ bazanın zənginləşdirilməsində xüsusi çəkiyə malikdir.

Uşaq hüquqlarının müdafiəsindən danışılarkən bir sıra digər sənədlərin də qeyd edilməsi tədqiqat üzrə əhəmiyyətli hesab edilə bilər. Məsələn, 1995-ci il tarixli Turizmdə uşaqların seksual istismardan müdafiəsi haqqında San-Vinsent Bəyannaməsində Uşaq Hüquqları haqqında 1989-cu il Konvensiyasının 34-cü maddəsinə uyğun olaraq, turizmdə uşaqların seksual istismarının qarşısını almaq üzrə 10 tövsiyə əks olunmuşdur.

Regional əməkdaşlıq uşaq hüquqlarının müdafiəsində də xüsusi yerə malikdir. Regional əməkdaşlıqdan danışarkən, V.A.Kartaşkin haqlı olaraq göstərir ki, regional əməkdaşlıq universal əməkdaşlıq formasını tamamlayır, bir sıra hallarda isə əsas hüquq və azadlıqları daha səmərəli təmin edir.

Regional əməkdaşlıqdan danışarkən, Avropa Şurası çərçivəsində qəbul edilmiş bir sıra spesifik sənədlər də qeyd edilməlidir. Məsələn, Avropa Şurası Parlament Assambleyası və YUNİSEF 1996-cı il yanvar ayında Uşaq Hüquqları üzrə Avropa Strategiyasını qəbul etmişdir. 1998-ci ilin may ayında Avropa Şurası Nazirlər Komitəsi tərəfindən Uşaqların maraqları nəzərə alınmaqla siyasətin formalaşması Proqramı qəbul edilmişdir.

Bu sahədə regional çərçivədə qəbul edilmiş mühüm beynəlxalq sənədlərdən 2002-ci il oktyabr ayının 7-də Kişinyov şəhərində imzalanmış yetkinlik yaşına çatmayanların öz daimi yaşadıqları dövlətlərə qaytarılması məsələlərində MDB-nin iştirakçısı olan dövlətlərin əməkdaşlığı haqqında Sazişdir.

N.Adilovun qeyd etdiyi kimi, sazişin 2-ci maddəsində qeyd edilir ki, tərəflərin səlahiyyətli orqanları sorğu əsasında himayəsiz qalmış yetkinlik yaşına çatmayanların axtarışının həyata keçirilməsində və bu şəxslərin daimi yaşayış yeri olan dövlətlərə qaytarılmasında bir-birinə yardım edirlər. İxtisaslaşdırılmış müəssisədə yerləşdirilmiş yetkinlik yaşına çatmayan şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi və ya hökmün icrası üçün digər dövlət tərəfindən axtarışda olduğunu müəyyən etdikdə, o, beynəlxalq müqavilələrdə nəzərdə tutulan qaydada və şərtlərlə həmin dövlətə verilə bilər. Himayəçilik və qəyyumluq üzrə valideynlik hüquqlarını həyata keçirən fiziki və ya hüquqi şəxslərin icazəsi olmadan daimi yaşadıqları dövləti tərk etmiş və digər tərəf olan dövlətin ərazisində peyda olmuş yetkinlik yaşına çatmayanlar, həmin dövlətin qanunvericiliyində nəzərdə tutulan qaydada və şərtlərlə digər tərəf olan dövlətin ixtisaslaşdırılmış müəssisələrinə yerləşdiriləcəklər. 3-cü və 4-cü maddənin tələblərinə görə, tərəflər ixtisaslaşdırılmış müəssisələrdə yerləşdirilmiş bütün yetkinlik yaşına çatmayanlara münasib və bərabər şərait yaratmağı öz öhdələrinə götürürlər. İxtisaslaşdırılmış müəssisələrdə yerləşdirilmiş yetkinlik yaşına çatmayanlar, həmin müəssisələrdə onların şəxsiyyətinin, qaldıqları dövlətə gəlməyin səbəb və şəraitinin müəyyən edilməsi və onların sonradan daimi yaşayış yeri olan dövlətə qaytarılması üçün saxlanılırlar. 7-ci maddənin tələblərinə görə, yetkinlik yaşına çatmayanların ixtisaslaşdırılmış müəsisələrdə saxlanılması üçün xərcləri, həmin xərclərin çəkildiyi tərəf olan dövtət ödəyir. Yetkinlik yaşına çatmayanların daşınması ilə bağlı xərcləri onların daimi yaşadıqları dövlət ödəyir.

Bu sahədə digər beynəlxalq sənəd 15 oktyabr 1975-ci il tarixdə Strasburq şəhərində imzalanmış nikahdankənar uşaqların hüquqi statusu haqqında Avropa Konvensiyasıdır. Konvensiyanın 2-ci maddəsində qeyd edilir ki, nikahdankənar doğulmuş uşağın həmin anadan mənsubiyyəti, müstəsna olaraq, uşağın doğum faktı ilə müəyyən edilir. 3-cü maddənin tələblərinə görə, nikahdankənar doğulmuş uşağın həmin atadan mənsubiyyəti könüllü etiraf və ya məhkəmənin qərarı əsasında təsdiq, yaxud müəyyən edilir. 5-ci maddədə qeyd edilir ki, uşağın, məhz bu atadan mənsubiyyətinin müəyyən edilməsi ilə əlaqədar işlər üzrə atalığı təsdiq və ya inkar etməyə imkan verən elmi sübutlar baxılmaq üçün qəbul edilməlidir. 6-cı maddədə göstərilir ki, nikahdankənar doğulmuş uşağın valideynlərinə nikahdan doğulmuş uşağın baxılmasına oxşar şəkildə baxmaq vəzifəsi qoyulmalıdır. 9-cu maddədə qeyd edilir ki, nikahda kənar doğulmuş uşaq nikahdan doğulmuş uşağa bərabər atası, anası və ya onların ailə üzvləri barəsində vərəsəlik hüququna malikdir. 10-cu maddədə isə göstərilir ki, nikahdankənar doğulmuş uşağın atası və anası arasında nikahın bağlanması həmin uşağa nikahdan doğulan uşaq hüquqi statusunu verir.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

N.Adilov göstərir ki, insan hüquqlarının təmin edilməsində ikitərəfli müqavilələr də mühüm əhəmiyyət kəsb edir. Belə ki, uşaq hüquqlarının qorunmasında ikitərəfli müqavilələr xüsusi yer tutur. AR-in digər dövlətlərlə imzaladığı hüquqi yardım haqqında müqavilədə uşaq hüquqlarının müdafiəsinə dair müddəalar mövcuddur. Məsələn, AR və Rusiya Federasiyası arasında mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında 1993-cü il tarixli müqavilənin 29-49-cu maddələrində bununla əlaqədar müddəalar vardır, AR-in digər ikitərəfli müqavilələrini də misal göstərmək olar.

Bütövlükdə, qeyd edilənləri və insan hüquqlarının beynəlxalq hüquq müdafiəsi sistemində uşaq hüquqlarının müdafiəsinin inkişafının bir sıra xüsusiyyətlərini belə fərqləndirmək olar:

- İlk növbədə, uşaq hüquqlarının insan hüquqları sahəsində universal bəyannamə və digər beynəlxalq normalarda təsbiti (1948-ci il İnsan hüquqları haqqında Ümumi Bəyannamədə, 1966-cı il Beynəlxalq Paktlarında və s.);
- Ayrı-ayrı sosial qruplar, qadınlar, qaçqınlarla əlaqədar qəbul edilmiş beynəlxalq sazişlərdə uşaq hüquqlarının təsbiti (Qaçqınların Statusu haqqında 1951-ci il Konvensiyası, Apatridlərin Statusu haqqında 1954-cu il Konvensiyası və s.);
- Bilavasitə, uşaq hüquqlarını müdafiə edən beynəlxalq sənədlərin qəbul edilməsi (1959-cu il Bəyannaməsi, 1989-cu il Konvensiyası və s).

Bütövlükdə, qeyd edilən istiqamətdə beynəlxalq sənədlərin təhlili nəticəsində, belə qənaətə gəlmək olar ki, insan hüquqlarının beynəlxalq hüquq müdafiəsi ilə yanaşı, onun tərkibində uşaq hüquqlarının müdafiəsini tənzim edən xüsusi beynəlxalq-hüquqi normalar formalaşmış və daha da inkişaf etmişdir. Bu isə uşaq hüquqlarının müdafiəsinə beynəlxalq cəmiyyətin daha diqqətlə yanaşmasını sübut edir və son nəticədə isə, həmin normaların ciddi şəkildə sistemləşdirilməsinə gətirib çıxarmışdır. Təsadüfi deyildir ki, uşaq hüquqlarının müdafiəsi beynəlxalq hüquqda yeni institut kimi Beynəlxalq Uşaq Hüquqları hüququnun (International law on the rights of the chıld) formalaşmasına təsir etmişdir.

**VAHİD ÖMƏROV,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*

## "Bakcell"dən gənclər üçün "DaimOnline" imkanı

***Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell xüsusi olaraq gənc abunəçilər üçün yaradılmış tam yeni "DaimOnline" tariflərini təqdim edib. Gənclər bir-biri ilə ünsiyyətdə olarkən daha çox sosial şəbəkələr və mesajlaşma tətbiqetmələrindən istifadə etməyə üstünlük verirlər. Bunu nəzərə alaraq, Bakcell şirkəti yeni "DaimOnline" paketlərini təklif edir. Üç variantda və müvafiq olaraq 6, 10 və 20 manat aylıq abunə haqqı ilə təklif olunan yeni tarif paketləri sayəsində istifadəçilər limitsiz "WhatsApp", "Facebook" və "Instagram" istifadəsi ilə yanaşı qiqabaytlarla internet və bol-bol şəbəkədaxili dəqiqələrdən yararlanacaqlar.***




"DaimOnline 6" tarifi çərçivəsində ayda sadəcə 6 AZN müqabilində 2 Gb İnternet trafiki və 50 şəbəkədaxili dəqiqə təqdim edilir. Bu tarifin əsas özəlliyi ondan ibarətdir ki, abunəçilər tamamilə limitsiz olaraq "WhatsApp"dan istifadə edəcəklər. Limitsiz "WhatsApp"a təkcə mətn deyil, hətta zənglər, şəkillərin, videoların və səs yazılarının göndərilməsi və yüklənməsi də daxildir.

Sosial şəbəkələrdən daha çox istifadə edən gənclər isə "DaimOnline 10" və "DaimOnline 20" tariflərinə üstünlük verəcəklər. Belə ki, qeyd olunan tariflərdə "WhatsApp", "Facebook" və "Instagram" istifadəsi tam olaraq limitsizdir! Bu tariflərin istifadəçiləri internet trafikin həcmini fikirləşmədən şəkilləri və videoları paylaşmaq, izləmək və həmin sosial şəbəkələrin bütün digər funksiyalarından istədikləri qədər istifadə edə bilərlər. Bundan əlavə "DaimOnline 10" (aylıq abunə haqqı 10 AZN) abunəçiləri ayda 5 Gb İnternet və 200 şəbəkədaxili dəqiqə, "DaimOnline 20" (aylıq abunə haqqı 20 AZN) abunəçiləri isə ayda 20 Gb internet və 400 şəbəkədaxili dəqiqə qazanırlar.

Azərbaycanın telekommunikasiya bazarında ən innovativ mobil operator olaraq, Bakcell bütün müştəri seqmetlərinin ehtiyac və tələblərini öyrənmək üçün daim bazar araşdırmaları həyata keçirir. Limitsiz "WhatsApp", "Facebook" və "Instagram" imkanı təqdim edən yeni "DaimOnline" tarif paketlərini istifadəyə verməklə, Bakcell gənc müştəriləri istədikləri qədər çeviklik və limitsiz ünsiyyət üçün tam sərbəstliklə təmin edib. Bu yeni tariflər sayəsində gənclər daima onlayn olacaqlar.

İnnovasiyalar sahəsində özünü doğrultmuş lider olan Bakcell müasir rabitə xidmətləri istifadəçilərinə yenilənmiş, rahat və yenilikçi tariflər, məhsullar və xidmətləri təklif etməyə davam edəcək. Bakcell şirkətinin yeni "DaimOnline" tarifləri və digər sərfəli və innovativ təkliflər barədə daha ətraflı məlumat almaq üçün www.bakcell.com səhifəsinə daxil olun.

## Boatenq "Bavariya"dan ayrılacaq



Bavariya"nın idarə heyətinin sədri Karl-Hayns Rummenigge komandanın müdafiəçisi Jerom Boatenqin gələcəyi haqda danışıb. SİA-nın məlumatına görə, klub rəsmisi Almaniya millisinin üzvünün ayrılığına "yaşıl işıq" yandırıb: "Boatenq digər klublarla görüşməkdə sərbəstdir. Əgər onu istəyən komandalar varsa, anlaşa bilərik. Boatenqə digər komandalarla danışıqlar aparmasına icazə vermişik".

Rummenigge komandanın hücumçusu Robert Levandovskinin ayrılmaq istəməsi haqda yayılan xəbərlər haqda danışıb: "Həftələr öncə Levandovskinin bizimlə qalacağını demişdim. İndi də eyni sözləri təkrar edirəm. Onun üçün gələn təkliflər açıq deyilik. Klub olaraq dəqiq qərar vermişik".



## Argentinada məhbuslar DÇ-ni izləmək üçün aclıq elan ediblər

Argentinadakı məhbuslar aclıq aksiyası elan ediblər. SİA-nın məlumatına görə, Puerto-Madrin şəhər həbsxanasındakı dustaqlar Rusiyada keçiriləcək dünya çempionatını izləmək üçün bu addımı atıblar. Onlar üç gündür işləməyən televiziya kabelinin təmir olunmasını tələb edirlər. Məhbusların məktubunda deyilir: "Biz bu problem həll olunmayınca günorta və axşam yeməklərini qəbul etməməyə qərar verdik". Məhkəmənin ərizəyə baxmamaq üçün heç bir əsas tapmadığı bildirilir.

Qeyd edək ki, "DÇ-2018"də Argentina millisi İslandiya (16 iyun), Xorvatiya (21 iyun) və Nigeriya (26 iyun) ilə birgə D qrupunda mübarizə aparacaq.

## Salah Uruqvayla oyuna hazırdır




"Liverpul"un hücumçusu Məhəmməd Salah Misir millisinin DÇ-2018-in ilk oyununda Uruqvayla keçirəcəyi görüşdə meydana çıxa biləcək. Qol.az-ın xarici mətbuata istinadən yaydığı xəbərə görə, bu barədə yığmanın baş məşqçisi Ektor Kuper məlumat verib. Oyun öncəsi mətbuat konfransında ulduz futbolçunun durumu ilə bağlı da danışan mütəxəssis onun ilk oyuna 100 faiz hazır olduğunu bildirib.



## İdmançımız Avropa Oyunlarına lisenziya qazandı

Azərbaycanın qadın kayakçısı Marina-Lorena Manolika 2019-cu ildə Belarusun paytaxtı Minskdə keçiriləcək II Avropa Oyunlarına lisenziya qazanıb. Apasport.az saytının məlumatına görə, 23 yaşlı idmançı bu nailiyyətə Serbiyanın paytaxtı Belqradda keçirilmiş Avropa çempionatında imza atıb.1 nəfərlik qayıqla 200 metr məsafəyə yürüşdə 40,579 saniyə nəticə göstərən Manolika 12-ci yeri tutaraq, lisenziya normasını yerinə yetirib. Kişi kayakçıların yarışında isə Mirnazim Cavadov 1 nəfərlik qayıqla 500 metr məsafəyə yürüşdə finişə 1 dəqiqə 41,922 saniyəyə çataraq, 14-cü yeri tutub. Oyunlara lisenziya verən 200 metr məsafəyə yürüşdə isə 26 yaşlı idmançı yarımfinal səddini adlaya bilməyib. Qeyd edək ki, II Avropa Oyunları gələn il 20 - 30 iyunda keçiriləcək.

## Cüdo üzrə Azərbaycan birinciliyinə yekun vurulub



Sumqayıt Olimpiya İdman Kompleksində U-23 gənclər arasında cüdo üzrə Azərbaycan birinciliyinə yekun vurulub. AZƏRTAC xəbər verir ki, yarışın ikinci günündə oğlanlar arasında 5 çəki dərəcəsində mükafatçılar məlum olub. Rüfət Məmmədov (73 kq), Samir Ağayev (81 kq), Azər Yaqubov (90 kq), Adil Kərimli (100 kq) və Camal Feyziyev (100 kq-dan yuxarı) qızıl medal qazanıblar. Ümumi medal sayında "Neftçi İdman Klubu" 11 medal (3 qızıl, 3 gümüş və 5 bürünc) qazanaraq birinci olub. "Atilla" klubu 4 medal (3 qızıl və 1) əldə edərək ikinci yeri tutub. Beş medala (1 qızıl, 2 gümüş və 2 bürünc) sahib olan "Judo Club 2012" isə ölkə birinciliyini üçüncü yerdə başa vurub. Qalib və mükafatçılara Gənclər və İdman Nazirliyinin, Azərbaycan Cüdo Federasiyasının diplom və medalları verilib. Qeyd edək ki, iki gün davam edən ölkə birinciliyində 49 klubdan 373 cüdoçu (306 oğlan, 67 qız) mübarizə aparıb.

## TƏBRİK EDİRİK!



*Duyğu Hüseynzadənin 3 yaşının tamam olması münasibətilə xalası Kubra, qardaşları Yusif, Məhəmməd, bacısı Fatimə səmimiyyətlə təbrik edir. Ona uzun ömür, möhkəm cansağlığı, xoşbəxt və firavan həyat arzu edirlər. O balaca çöhrəsindən təbəssüm heç bir zaman əskik olmasın! Vətəninin və xalqının daim fəxri olsun! Ad günün mübarək!*

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fizika və texnologiya ixtisası üzrə III kurs tələbəsi Baxışlı Rəşidə Sədyar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**